# Bunu bilməlisiniz!

## Aliment haqqında

Məhkəməyə müraciət qaydaları

**Azərbaycan Respublikasının Məhkəmə sistemi hansı Məhkəmələrdən ibarətdir?**

Azərbaycan Respublikasının məhkəmə sistemi Azərbaycan Respublikası ALİ məhkəməsində, Apellyasiya məhkəmələrindən, ümumi məhkəmələrdən və digər ixtisaslaşmış məhkəmələrdən ibarətdir. AR-da Ədalət mühakiməsini AR-ın Məhkəmələri Qanunun Aliliyi prinsipinə uyğun həyata keçirir. Azərbaycanda üçpilləli Məhkəmə sistemi fəaliyyət göstərir:

1) Birinci İnstansiya Məhkəmələri (rayon-şəhər məhkəmələri, İxtisaslaşmış məhkəmələr- inzibati iqtisadi məhkəmələr, hərbi məhkəmələr, ağır cinayətlərə dair işlər üzrə məhkəmə)

2) Apellyasiya İnstansiyası Məhkəmələri

3) Kassasiya İnstansiyası Məhkəməsi.

**Birinci İnstansiya Məhkəmələri hansılardır?**

Birinci İnstansiya məhkəmələri İlkin məhkəmə orqanlarıdır. Birinci İnstansiya məhkəmələrinə Rayon ( Şəhər) məhkəmələri, hərbi məhkəmələr, yerli iqtisad məhkəmələri və ağır cinayətlərə dair işlər üzrə məhkəmələr daxildirlər.

**Rayon (Şəhər) məhkəmələrinin fəaliyyətləri nədən ibarətdir?**

Rayon (şəhər) məhkəmələri Azərbaycan Respublikası qanunvericiliyi ilə onlara həvalə edilmiş Mülki və cinayət işlərinə, o cümlədən inzibati xətarala dair işlərə baxır. Mülki məhkəmə icraatı qaydasında mülki, ailə, əmək, mənzil, torpaq münasibətləri, təbii ehtiyatlardan istifadə olunması və ya ətraf mühitin qorunması, vergi, inzibati və digər
mübahislərdən irəli gələn işlərə baxırlar.

Belə ki, ilkin olaraq yuxarıda göstərilən sahələrə aid hüquqlarının pozulması onların müdafiəsi və bərpası üçün şəxs, Rayon (Şəhər) Məhkəmələrinə müraciət etməlidir.

**Məhkəməyə müraciət qaydası necədir, İddia Ərizəsində nələr göstərilməlidir?**

Məhkəməyə müraciət etmək istəyən şəxs "İddia Ərizəsi" yazmalı və İşin hallarını əsaslandırdığı sübutları (sənədləri) həmin İddia Ərizəsinə əlavə etməli. Qeyd etmək istərdim ki, Məhkəməyə ya sənədlərin əsli, ya da Notariat qaydada təsdiq olunmuş surəti təqdim olunmalıdır. İddia Ərizəsi formaca Təsviri, Əsaslandırıcı və Nəticə ( Xahiş) hissəsindən ibarət olmalıdır. Təsviri hissədə şəxs yaranmış hüquqi mübahisə barədə qısa, aydın formada yazılmış məlumatlar göstərilməlidir. Əsasladırıcı hissədə Şəxs özünün əsas olaraq istinad etdiyi hüquqi normativ aktları, şəxsin əlində olan digər sübutları göstərməyi tövsiyyə olunur. Nəticə və ya Xahiş hissəsində isə Şəxsin Məhkəmə tərəfindən hansı hüququnun müdafiəsi, bərpası və ya tanınması ilə bağlı olan Xahiş yerləşdirilməlidir.

**Qeyd: İddia Ərzisində aşağıdakı məlumatlar mütləq yerləşdirilməlidir:**

1) Ərizənin verildiyi Məhkəmənin adı

2) İşdə iştirak edən şəxslərin adları, onların poçt ünvanları

3) İddiaçının və ya ərizəçinin tələbi, tələbin əsaslandığı hallar

4) Ərizəyə əlavə edilən sənədlərin siyahısı

**Məhkəməyə müraciət etmək üçün nə qədər dövlət rüsumu ödənilməlidir?**

Qeyd edim ki, Azərbaycan Respublikası Qanunvericiliyinə əsasən Məhkəməyə müraciət etmək üçün

ödənilməli olan Dövlət rüsumları İddia Predmetinin dəyərindən asılı olaraq dəyişir. Belə ki, İddia Predmetinin dəyəri 110 manatdan artıq olduqda müvafiq məhkəmənin hesabına 20 manat məbləğində, İddia predmetinin dəyəri 110 manatdan aşağı olduqda və digər bütün hallarda isə 3 manat məbləğindədir. Xüsusilə qeyd etmək istərdim ki, Alimentin tutulmasına (artırılmasına), əmək fəaliyyəti ilə bağlı məsələlərə, müəlliflik mübahisələri üzrə olan məsələlərdə, istehlakçı hüquqlarının pozulması ilə bağlı olan məsələlərə və digər məsələlər dair olan məhkəmə mübahisələri üçün dövlət rüsumu ödənilmir.

**Məhkəmədə işə baxılma müddətləri, şikayət müddətləri nə qədərdir?**

İddia ərizisi, məhkəmə onun daxil olmasında 2 həftə ərzində qaytarmayıbsa və ya onu qəbul etməkdən imtina etməyibsə qəbul edilmiş sayılır. Ümumi İddia icraatında məhkəməyə Ərizə təqdim edildikdən sonra 3 ay müddətində həmin işə məhkəmə tərəfindən baxılmalı, aiddiyyatı üzrə Qətnamə və ya Qərardad çıxarılmalıdır. Qətnamə açıq məhkəmə iclasında tərəflərə oxunur və Qətnamədən Çıxarış təqdim olunur. 3 gün ərzində isə Qətnamə tam formada tərəflərə verilir. Qətnaməni almış tərəflər aldığı gündən sonrakı 1 ay müddətində Apellyasiya Məhkəməsinə müraciət etmək hüquqları vardır. Əgər tərəflərdən heç biri 1 ay müddətində Apelyyasiya Şikayəti verməmişlərsə onda Qətnamə Qanunu Qüvvəyə minir və İcraata yönəlir.

**Apellyasiya məhkəməsinin fəaliyyəti nədən ibarətdir, hansı müddətdə işə baxılır və necə müraciət edilir?**

Birinci İnstansiya məhkəməsinin Qətnaməsini tərəf rəsmi şəkildə aldıqdan sonra 1 ay müddətində, Qərardandan isə 10 gün müddətində Apellyasiya Şikayəti yazmaqla Apellyasiya məhkəməsinə müraciət etməlidir. Apellyasiya məhkəməsinin daxil olmuş Şikayət əsasında Məhkəmə işinə baxma müddəti 3 aydır. Apellyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin Qətnaməsini Ləğv edə, Qismən Ləğv edə və ya Qüvvədə saxlaya bilər. Apellyasiya Qətnaməsi qəbul olunduqdan sonra, tərəflər Apellyasiya Qətnaməsini aldıqdan sonra 2 ay müddətində Kassasiya Şikayəti verməklə Azərbaycan Respublikası Ali Məhkəməsinə müraciət etmək hüquqları vardır. Əgər bu müddət ərzində Kassasiya Şikayəti verilməmişdirsə, o zaman Apellyasiya məhkəməsini çıxardığı Qətnamə Qanunu Qüvvəyə minir və İcraya yönəldilir.

**Kassasiya İnstansiyasına necə müraciət edilir, hansı müddətdə işə baxılır?**

Apellyasiya Məhkəməsinin Qətnaməsindən qanunla göstərilmiş müddət ərzində ( 2 ay ) Kassasiya şikayəti verildikdə Ali Məhkəmə işə 2 ay ərzində baxır və Yekun Qərar çıxarılır və bu qərar qəbul edildiyi gündən 1 ay müddətinə məktub vasitəsilə tərəflərə göndərilir. Ali Məhkəmə Apellyasiya məhkəməsinin qətnaməsini Ləğv edə, Qismən Ləğv edə və ya Qüvvədə saxlaya bilər. Əgər Apellyasiya məhkəməsinin Qətnaməsi Ali Məhkəmə tərəfindən Ləğv edilərsə o zaman işə yenidən baxılması üçün Apellyasiya məhkəməsinə göndərilir. Ali Məhkəmənin Yekun Qərarından Ali Məhkəmənin Plenumuna Şikayət, təqdimat və protest 2 ay müddətində verilə bilər. Qeyd: əgər şəxs ölkə daxili məhkəmələrdə işinə düzgün, ədalətli və Qanunun Aliliyi prinsipinə uyğun baxılmadığını, o cümlədən əgər şəxsin İnsan Hüquqları Konvensiyasında göstərilmiş hüquqlarından birinin pozulduğunu hesab edərsə, o zaman Azərbaycan Respublikası Ali Məhkəməsinin Yekun Qərarını Rəsmi şəkildə əldə etdikdən 6 ay müddətində Avropa İnsan Hüquqları Məhkəməsinə Müraciət edə bilər.

Məhkəmə qərarlarının icrası

**1. Məhkəmə Qərarları Nə vaxt İcraya yönləndirilir?**

Azərbaycan Respublikası qanunları ilə müəyyən edilmiş qaydada və müəyyən edilmiş müddət ərzində Məhkəmə prosesi yekunlaşdıqdan, yəni Məhkəmə baxdığı işlə bağlı Qərar qəbul etdikdən sonra həmin qərardan yuxarı Məhkəmə orqanına qanunvericiliklə müəyyən edilmiş vaxt ərzində şikayət edilmədiyi təqdirdə Qərar Qüvvəyə minmiş hesab edilir və İcraya yönəldilir. Məhkəmə qərarlarının İcrası fəaliyyəti bir başa olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İcraçılar Baş idarəsinə həvalə olunur. Belə ki, Qətnamə hüquqi hərəkətin baş verməli yer üzrə icra olunmalıdır.

**2. İcra Hansı Qaydada Həyata keçirilir?**

Ədliyyə Nazirliyi İcra baş idarəsinin hər bir Rayon(şəhər) üzrə İcra şöbələri fəaliyyət göstərməkdədirlər. Məhkəmə Qərarlarının icrası həmin şöbələrin əməkdaşlarından birinə, daha doğrusu İcra Məmuruna həvalə edilir. Azərbaycan Respublikası adından çıxan Qərarların icrası öhdələyini İcra Məmuru və onun aid olduğu orqan daşıyır. O cümlədən Məhkəmənin Qərarı ilə Qərarın İcrası Qərarda adı göstərilən digər dövlət orqanlarına və təşkilatlara tapşırıla bilər. Yəni Məhkəmə işinin mahiyyətindən asılı olaraq Qərar ilə edilməli olan hərəkət həmin funksiyanı yerinə yetirən orqana və ya təşkilata tapşırılır. Məhkəmə qərarı icraya yönləndirmək üçün qərarı çıxaran hakim İcra sənədi hazırlayıb aidiyyatı üzrə İcra məmuruna və ya icranı həyata keçirən digər orqana, təşkilata göndərməlidir.

**3.Məhkəmə Qərarı hansı müddətə həll olunmalıdır?**

İcra sənədi almış İcra məmuru və ya Orqan təşkilatlar 2 ay ərzində Qərarı icra etməlidirlər. Müstəsna hallarda İcra sənədində göstərilən halların icra olunması üçün icra qurumun rəhbərinin təqdimatı əsasında icra xidmətinin rəhbəri ( Baş İcra məmuru ) tərəfindən 1 ay müdətinədək uzadıla bilər.

**4. Məhkəmə Qərarlarının icrası qanunla müəyyən edilmiş müddət ərzində həyata keçirilməsə hansı orqana müraciət etmək olar?**

Məhkəmə qərarlarının icrası zamanı yaranan problemlərlə bağlı tərəf Azərbaycan Respublikası Ədliyyə Nazirliyi İcra baş idarəsinə, habelə İcranı həyata keçirməli olan orqan və ya təşkilatın Yuxarı qurumuna Qətnamənin İcrasının həyata keçirilməsi Tələbi ilə bağlı Şikayət Ərizəsi ilə müraciət edə bilər. Azərbaycan Respublikasının adından çıxan Qərarların icrası Məcburidir və bu yalnız Yuxarı Məhkəmə orqanın həmin qərarı ləğv etməsi ilə dayandırıla bilər. Xüsusilə qeyd etmək istəyirəm ki, Məhkəmə Qərarlarını icra etməməyə və Məhməkə Qərarlarının icrasına mane olmağa görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq Maddələrinə əsasən Məsuliyyət nəzərdə tutulmuşdur.

**Qeyd:** Məhkəmə qərarlarının icrası zamanı tərəflərdən birinə maddi ziyan vurulması halı aşkar edilərsə o zaman həmin maddi ziyan vurulmuş tərəf Məhkəmədə İcranı həyata keçirən orqana qarşı Maddi tələblə bağlı İddia qaldırmaq hüququna malikdir.

Şəxsiyyət vəsiqəsinin alınması

**1 . Şəxsiyyət vəsiqəsinin hansı növləri var?**

16 yaşına çatanadək vətəndaşa verilən şəxsiyyət vəsiqəsi;

16 yaşına çatdıqdan sonra vətəndaşa verilən şəxsiyyət vəsiqəsi.

**2. Şəxsiyyət vəsiqəsinin verilməsi üçün hansı sənədlər tələb olunur?**

Şəxsiyyət vəsiqəsinin verilməsi üçün Azərbaycan Respublikasının hər bir vətəndaşının və ya onun qanuni nümayəndəsinin ərizəsi, doğum şəhadətnaməsi, 16 yaşına çatmış vətəndaşın 2 ədəd 3X4 ölçüdə fotoşəkli, dövlət rüsumunun ödənilməsi barədə qəbz və zəruri hallarda Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənədlər tələb olunur.

**4. Şəxsiyyət vəsiqəsi hansı müddətə verilir?**

Şəxsiyyət vəsiqəsi Azərbaycan Respublikasının vətəndaşının müraciətindən ən geci *10 gün* keçənədək verilir.

**5. Hansı hallarda şəxsiyyət vəsiqəsi dəyişdirilməlidir?**

Azərbaycan Respublikası vətəndaşı 25, 35, 50 yaşına çatdıqda,

Azərbaycan Respublikası vətəndaşın soyadı, adı, atasının adı, yaşayış yeri, ailə vəziyyəti, hərbi vəzifəsi dəyişildikdə,

Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsində olan yazılar təhrif edildikdə, şəxsiyyət vəsiqəsi yararsız hala düşdükdə,

Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdikdə,

Şəxsiyyət vəsiqəsi bu hallardan biri baş verdikdən sonra bir ay ərzində dəyişdirməlidir

**6. Şəxsiyyət vəsiqəsi verilərkən qanunla hansı məbləğdə dövlət rüsumu ödənilməsi nəzərdə tutulmuşdur?**

16 yaşına çatmış Azərbaycan Respublikasının vətəndaşlarına şəxsiyyət vəsiqəsi verilməsi üçün

-üç iş günü müddətində verildikdə 5 manat,

-üç iş günündən sonrakı müddətdə verildikdə 1 manat məbləğdə dövlət rüsumu ödənilməsi qanunla müəyyən edilmişdr.

16 yaşına çatmamış vətəndaşlara şəxsiyyət vəsiqəsi verilərkən dövlət rüsumu alınmır.

**8. Azərbaycan Respublikasının vətəndaşları 25, 35, 50 yaşına çatdıqda, həmçinin onların soyadı, adı, atasının adı, yaşayış yeri, ailə vəziyyəti və hərbi vəzifəsi dəyişdikdə şəxsiyyət vəsiqəsinin dəyişdirilməsinə görə qanunla hansı məbləğdə dövlət rüsumu müəyyən edilmişdir?**

Azərbaycan Respublikasının vətəndaşları 25, 35, 50 yaşına çatdıqda, həmçinin onların soyadı, adı, atasının adı, yaşayış yeri, ailə vəziyyəti və hərbi vəzifəsi dəyişdikdə şəxsiyyət vəsiqəsinin dəyişdirilməsinə görə *2 manat* dövlət rüsumu müəyyən edilmişdir.

**9. Şəxsiyyət vəsiqəsi vətəndaşdan hansı hallarda müvəqqəti alınır?**

Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi vətəndaşdan aşağıdakı hallarda müvəqqəti olaraq alınır:

Vətəndaş müddətli həqiqi hərbi xidmətə çağırıldıqda onun yaşadığı yerin hərbi komissarlığı, hərbi tədris müəssisəsinə daxil olduqda isə həmin müəssisənin müdiriyyəti çağırışçının (kursantın) şəxsiyyət vəsiqəsini müvəqqəti alaraq hərbi xidmət başa çatanadək saxlamaq və sonra sahibinə qaytarmaq üçün yaşayış yeri üzrə müvafiq dövlət orqanına göndərir.

Barəsində həbsəalma qəti-imkan tədbiri seçilmiş, azadlığın məhdudlaşdırılması, müəyyən müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərdən şəxsiyyət vəsiqəsi təhqiqat, ibtidai istintaq, məhkəmə orqanları və cəzanı icra edən orqanlar tərəfindən müvəqqəti alınır və həmin şəxs haqqında iş üzrə icraata və ya şəxsi işə əlavə edilir.

Göstərilən əsaslar aradan qalxdıqda şəxsiyyət vəsiqəsi dərhal sahibinə qaytarılır.

**10. Şəxsiyyət vəsiqəsi olmadan və ya yaşayış yeri üzrə qeydiyyatdan keçmədən yaşamasına görə qanunla hansı inzibati məsuliyyət müəyyən olunmuşdur?**

Vətəndaşın bir aydan artıq müddətdə şəxsiyyət vəsiqəsi olmadan yaşamasına, habelə həmin müddət ərzində yaşayış yeri üzrə qeydiyyatdan keçmədən yaşamasına görə *xəbərdarlıq edilir və ya üç manatdan beş manatadək* miqdarda cərimə edilir.

**11.Hansı hallarda Şəxsiyyət vəsiqəsi təhvil verilir?**

Vətəndaş öldükdə onun şəxsiyyət vəsiqəsi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını aparan orqana təhvil verilir və həmin orqan vətəndaşın ölümünü qeydə aldıqdan sonra şəxsiyyət vəsiqəsi onu vermiş müvafiq dövlət orqanına göndərilir.

Tapılmış şəxsiyyət vəsiqəsi onu verən dövlət orqanına təhvil verilməlidir.

**12. Hansı hallarda Şəxsiyyət vəsiqəsi qüvvədən düşmüş hesab edilir?**

Dəyişdirilməsi nəzərdə tutulmuş hallarda *1 ay ərzində dəyişdirilməzsə* şəxsiyyət vəsiqəsi qüvvədən düşmüş hesab olunur.

**13. Şəxsiyyət vəsiqəsinin itirilməsi və ya qəsdən korlanmasına görə hansı məbləğdə cərimə edilir?**

Şəxsiyyət vəsiqəsinin itirilməsi və ya qəsdən korlanmasına görə təqsirli şəxslər *on beş manatdan iyirmi beş manatadək miqdarda cərimə edilir.*

**14. Şəxsiyyət vəsiqəsi vətəndaşın öz təqsiri üzündən itdikdə və ya yararsız hala düşdükdə onun dəyişdirilməsinə görə qanunla hansı məbləğdə dövlət rüsumu müəyyən edilmişdir?**
Şəxsiyyət vəsiqəsi vətəndaşın öz təqsiri üzündən itdikdə və ya yararsız hala düşdükdə onun dəyişdirilməsinə görə *3 manat* dövlət rüsumu müəyyən edilmişdir.

**15. Şəxsiyyət vəsiqəsinin verilməsindən imtina edilməsində, onun verilməsi üçün**

**vətəndaşdan nəzərdə tutulmayan sənədlər tələb edilməsində və ya şəxsiyyət vəsiqəsinin verilməsində (dəyişdirilməsində) süründürməçiliyə yol verilməsində təqsirli şəxslər hansı qaydada inzibati məsuliyyət daşıyırlar?**

Vətəndaşlara onların şəxsiyyət vəsiqələrinin və ya pasportlarının verilməsindən əsassız imtina edilməsinə, verilməsi üçün qanunla nəzərdə tutulmayan əlavə sənədlər tələb edilməsinə və ya onların verilməsində (dəyişdirilməsində) süründürməçiliyə yol verilməsinə, qanunsuz alınmasına və ya girov götürülməsinə görə *səksən beş manatdan doxsan manatadək* miqdarda cərimə edilir.

Vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı

***Doğumun dövlət qeydiyatına alınması***

**1. Doğumun dövlət qeydiyatına alınması qaydası nədir?**

Doğumun dövlət qeydiyyatı uşağın doğulduğu yerdə və ya valideynlərin, yaxud onlardan birinin yaşadığı yerdə Qeydiyyat şöbəsi, konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyi tərəfindən aparılır.

Doğum haqqında məlumat uşağın doğulduğu gündən ən geci 1 ay ərzində, uşaq ölü doğulduqda isə ən geci doğum vaxtından ötən 3 gün müddətində verilməlidir.

**2. Doğumun qeydə alınması üçün hansı sənədlər təqdim edilməlidir?**

Doğumun qeydə alınması üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

valideynlərin şəxsiyyətini təsdiq edən sənədlər;

valideynlərin nikah haqqında şəhadətnaməsi;

doğum faktını, vaxtını və yerini təsdiq edən tibb müəssisəsindən sənəd;

uşaq tibb müəssisəsindən kənarda doğulduqda, doğuma kömək göstərmiş və ya doğuşdan sonra valideynlərin müraciət etdiyi həkimin verdiyi sənəd;

uşaq ölü doğulubsa, onun ölü doğulması barədə həkimin verdiyi sənəd;

uşaq, ana tibb müəssisəsindən çıxmamışdan əvvəl ölübsə, doğum və ölüm barədə həkimin verdiyi sənəd;

**3. Valideynlər öldükdə doğumun qeydiyyatını necə həyata keçirilir?**

Valideynlərin müəyyən səbəblərə görə (xəstələndikdə, uzunmüddətli ezamiyyətə getdikdə, ölkə hüdudlarından kənarda olduqda, öldükdə və sair) müraciət etməsi mümkün olmadıqda isə qohumlar, qonşular, uşağın doğulduğu tibb müəssisəsinin müdiriyyəti və yaxud başqa şəxslər qeydiyyat şöbəsinə, konsulluq idarəsinə, icra hakimiyyətinin nümayəndəliyinə müraciət edirlər

**4. Atalığın müəyyən edilməsinin qeydə alınması qaydası**

Ərizə əsasında atalığın müəyyən edilməsinin qeydə alınması valideynlərdən birinin yaşadığı yerin

Qeydiyyat şöbəsi (konsulluq idarəsi) tərəfindən həyata keçirilir. Atalığın müəyyən edilməsi valideynlərin birgə ərizəsi (məhkəmənin qətnaməsi) əsasında qeydə alınır.

**5. Ana öldükdə və ya ananın yaşadığı yeri müəyyən etmək mümkün olmadıqda atalığı necə müəyyən etmək olar?**

Qeydiyyat şöbəsi (konsulluq idarəsi) ana öldükdə, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, ananın yaşadığı yeri müəyyən etmək mümkün olmadıqda və ya o, valideynlik hüquqlarından məhrum edildikdə, atalığın müəyyən edilməsini yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanlarının razılığı ilə uşağın atasının ərizəsi əsasında qeydə ala bilər. Bu halda atanın ərizəsinə müvafiq olaraq aşağıdakı sənədlər əlavə olunmalıdır:

yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının müvafiq razılığını təsdiq edən sənəd;

ananın ölümü haqqında şəhadətnamənin surəti;

ananın fəaliyyət qabiliyyəti olmayan hesab edilməsi haqqında məhkəmə qətnaməsindən çıxarış; ananın valideynlik hüquqlarından məhrum olunması barədə məhkəmə qətnaməsindən çıxarış; ananın xəbərsiz itkin düşmüş hesab edilməsi barədə məhkəmə qətnaməsindən çıxarış və ya onun

yaşadığı yeri müəyyən etməyin mümkün olmasını təsdiq edən daxili işlər orqanlarından müvafiq sənəd.

Atalığın müəyyən edilməsi haqqında akt qeydinin qeydlər üçün müəyyən olunmuş qrafasında bu sənədlər barədə məlumatlar qeyd olunur.

***<u>Ölümün qeydə alınması qaydası</u>***

**Ölümün qeydə alınması qaydası nədir?**

Ölümün qeydə alınması ölmüş şəxsin yaşamış olduğu yerdə və ya ölümün baş verdiyi yerdə Qeydiyyat şöbəsi (konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyi) tərəfindən aparılır. Ölüm faktının müəyyən edilməsi haqqında və ya vətəndaşın ölmüş elan edilməsi haqqında məhkəmənin qətnaməsi üzrə ölümün qeydə alınması qətnamə çıxarmış məhkəmənin olduğu yerdə aparılır.

Ölümün qeydə alınması ölmüş şəxsin qohumlarının, onun qonşularının, mənzil-istismar təşkilatları işçilərinin məlumatı üzrə, habelə ölümün baş vermiş olduğu təşkilatın müdiriyyətinin və başqa şəxslərin məlumatı üzrə aparılır.

Ölüm haqqında məlumat Qeydiyyat şöbəsi (konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyinə) ölümün baş verdiyi və ya meyitin tapıldığı vaxtdan on gündən gec olmayaraq verilməlidir.

Ölüm faktı tibb müəssisəsinin müvafiq sənədi ilə (ölüm haqqında həkim arayışı, ölüm haqqında feldşer arayışı ilə) təsdiq edilməlidir. Ölüm faktını təsdiq edən sənəd ölüm haqqında akt qeydlərinin ikinci nüsxəsinə əlavə olunmalı və onun üzərində qeydlərin nömrəsi, ölümün qeydiyyat tarixi yazılmalıdır. Ölüm haqqında həkim şəhadətnaməsi olmadıqda, ölüm faktı məhkəmə tərəfindən müəyyən edilir.

Məhkəmə qaydasında ölmüş elan edilən şəxslərin ölümü qeyd edilərkən ölüm haqqında akt

qeydlərində ölümün vaxtı məhkəmə qətnaməsinin qanuni qüvvəyə mindiyi tarixlə göstərilir. Əgər ölüm faktı məhkəmə qətnaməsində müəyyən tarixlə göstərilibsə, ölüm haqqında akt qeydində ölümün tarixi məhkəmə qətnaməsində yazılmış tarixlə göstərilir.

Ölüm haqqında şəhadətnamə ölən şəxsin müraciət etmiş yaxın qohumlarına təqdim olunur.

***Nikahın qeydə alınması qaydası nədir***

**Nikahın qeydə alınması qaydası nədir?**

Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur.

Nikahın qeydə alınması nikaha daxil olanlardan və ya onların valideynlərindən birinin seçdiyi hər hansı bir Qeydiyyat şöbəsi (konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyi) tərəfindən həyata keçirilir. Nikaha daxil olmağı arzu edənlər bu barədə Qeydiyyat şöbəsinə (konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyinə) şəxsən yazılı ərizə verirlər.

Əgər nikaha daxil olmaq istəyən şəxslərdən birinin üzürlü səbəbə görə (ağır xəstəlik, uzunmüddətli ezamiyyətə getmə, uzaq yerdə yaşama və s.) ərizə vermək məqsədilə Qeydiyyat şöbəsinə (konsulluq idarəsinə və icra hakimiyyətinin nümayəndəliyinə) gəlmək imkanı olmadıqda, gəlmiş ikinci tərəf digər tərəfin özünə aid hissəsini şəxsən doldurduğu birgə ərizə və ya ayrı-ayrı ərizələri təqdim edir.

Gəlməmiş tərəfin ərizədəki imzasının həqiqiliyi onun yaşadığı yerin Qeydiyyat şöbəsi (konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyi) tərəfindən və ya notariat qaydasında təsdiq edilməlidir.

Ərizəni qəbul etmiş Qeydiyyat şöbəsi, konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyi nikaha daxil olanları nikahın qeyd olunması şərtləri və qaydası ilə tanış etməli, bu şəxslərin bir- birinin səhhəti və ailə vəziyyəti haqqında xəbərdar olduqlarını aydınlaşdırmalı, habelə gələcək ər- arvad və ya valideyn kimi onlara hüquqlarını və vəziyyətini izah etməlidir. Nikahın qeydiyyatının günü və saatı nikaha daxil olan şəxslərlə razılaşdırılaraq müəyyən edilir.

Qeydiyyat şöbəsi, konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyi ərizəni qəbul etdikdən sonra evlənənlərin razılığı ilə istirahət günü də nəzərə alınmaqla nikahın bağlanması günü və saatı təyin edilir. Nikah Qeydiyyat şöbəsi, konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyi tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin bu barədə ərizə verdikləri gündən 1 aydan tez olmayaraq onların iştirakı ilə bağlanır. Üzrlü səbəblər olduqda nikahın bağlanma müddəti Qeydiyyat şöbəsi, konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyi tərəfindən azaldıla və ya 1 aydan çox olmayan müddətə uzadıla bilər.

Müddəti azaltmaq və uzatmaq üçün əsas ola bilən üzrlü səbəblərə təcili olaraq uzunmüddətli ezamiyyətə getmə və ya daimi yaşamaq üçün başqa yerə köçmə, birgə uşaqların olması, nikaha daxil olmaq istəyən qadının hamilə olması, evlənənlərin və ya onların yaxın qohumlarının ağır xəstəliyi, hərbi xidmətə çağırılma və digər hallar aid edilə bilər. Bu hallar müvafiq sənədlərlə (ezamiyyə vərəqəsi, tibb arayışı, doğum haqqında şəhadətnamə və s) təsdiq edilməlidir. Xüsusi hallarda (hamiləlik, birgə uşağın olması, nikaha daxil olmaq istəyən şəxslərin hər ikisinin yaşının 50-dən yuxarı olması) nikah ərizə verilən gün bağlana bilər.

Nikaha daxil olan şəxslərin arzusu ilə nikahın qeydə alınmasında digər şəxslər iştirak edə bilərlər.

Nikah haqqında aktın qeydində imza edən şahidlər iki nəfərdən artıq olmamalıdır.

Nikaha daxil olmağı arzu edən şəxslərin müraciətinə əsasən nikah toy mərasimində qeydə alına bilər. Nikahın qeydiyyatı günü təyin edilərkən nikaha daxil olmağı arzu edən şəxslər Qeydiyyat şöbəsinə (konsulluq idarəsi və icra hakimiyyətinin nümayəndəliyinə) nikahın toy mərasimində qeydə alınmaq istəyi barədə məlumat verirlər.

Nikahın bağlanması haqqında qeyd aparıldıqda nikah haqqında şəhadətnamə verilir.

***Soyadı, adı və ata adını necə dəyişdirilməsi***

**Soyadı, adı və ata adını necə dəyişdirilməlidir?**

Azərbaycan Respublikası vətəndaşlarının öz adını, ata adını və soyadını dəyişdirməsinə 18 yaşına çatdıqdan sonra yol verilir.

Adın, ata adının və soyadın dəyişdirilməsi qeydiyyat şöbəsi və ya konsulluq tərəfindən həyata keçirilir.

Ərizə verən şəxsin istəyi ilə ata adı onu tərbiyə etmiş şəxsin razılığı ilə həmin şəxsin adı ilə dəyişdirilir.

Adın, ata adının və soyadın dəyişdirilməsi haqqında ərizə vətəndaşın yaşayış yeri üzrə qeydiyyat şöbəsinə, xarici ölkədə daimi və ya il ərzində 182 gündən artıq müvəqqəti yaşayan Azərbaycan Respublikasının vətəndaşı tərəfindən isə konsulluğa verilir.

Ərizə iki nüsxədə təqdim olunur. Nüsxələrdən birinin üzərində ərizənin qəbul edilməsinə dair qeyd aparılır və o, ərizə verən şəxsə qaytarılır.

**Adın, ata adının və soyadın dəyişdirilməsi haqqında ərizədə aşağıdakı məlumatlar göstərilməlidir:**

1. ərizə verən şəxsin soyadı, adı, atasının adı;
2. adını, ata adını və ya soyadını dəyişdirmək istəyi;
3. daşımaq istədiyi ad, ata adı və soyad;
4. doğulduğu tarix və yer;
5. milliyyəti və vətəndaşlığı;
6. yaşayış və iş yeri, vəzifəsi;
7. hərbi uçot yeri;
8. əvvəllər ad, ata adı və soyad dəyişdirilibsə, nə vaxt və harada;
9. ərizə verənədək bağladığı nikahlar və onların pozulması haqqında məlumat (kimlə nikah bağlanıb və ya pozulub, nə vaxt və harada);
10. övladları (soyadı, adı, atasının adı, doğulduğu tarix və yer);

11. xarici ölkələrdən deportasiya olunmuşdursa, hansı ölkədən, nə vaxt;

12. şəxsiyyətini təsdiq edən sənəd (seriyası, nömrəsi və verilmə tarixi).

**Adın, ata adının və soyadın dəyişdirilməsi haqqında ərizəyə aşağıdakı sənədlər əlavə edilir:**

1. ərizə verən şəxsin doğum haqqında şəhadətnaməsi;
2. ərizə verən şəxs nikahdadırsa, nikah haqqında şəhadətnamə;
3. ərizə verən şəxsin nikahı pozulmuşdursa, nikahın pozulması haqqında şəhadətnamə;
4. ərizə verən şəxsin yetkinlik yaşına çatmayan uşaqları vardırsa, onların doğumu haqqında şəhadətnamələr;
5. şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti;
6. çağırış məntəqəsinə təhkim olunma vəsiqəsinin və ya hərbi biletin notariat qaydasında təsdiq edilmiş surəti;
7. ərizə verən şəxsin 3×4 sm ölçüdə 2 ədəd fotoşəkli;
8. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş hallarda dövlət rüsumunun ödənilməsinə dair qəbz.

Qeydiyyat şöbəsi və ya konsulluq ad, ata adı və soyad dəyişdirildikdən sonra şəxsiyyət vəsiqəsinin və digər sənədlərin dəyişdirilməsinin zəruriliyini ərizə verən şəxsə izah edir.

Atanın öz adını dəyişdirməsi qeydə alınarkən onun yetkinlik yaşına çatmayan uşaqlarının ata adı dəyişdirilir. Yetkinlik yaşına çatanların ata adı yalnız o hallarda dəyişdirilir ki, onların özləri bu barədə müraciət etmiş olsunlar. Hər iki valideynin soyadı dəyişdirildikdə, yetkinlik yaşına çatmayanların soyadı dəyişir. Soyadı valideynlərdən biri dəyişdirərsə, onun yetkinlik yaşına çatmayan uşaqlarının soyadının dəyişməsi məsələsi valideynlər arasında razılığa görə, razılıq olmadıqda isə yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanı tərəfindən həll edilir.

***Adın verilməsindən və ya dəyişdirilməsindən imtina edilməsi barədə qeydiyyat orqanının qərarından inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.***

Notariat xidmətləri

## 1. Notarius hansi hərəkətləri apara bilər ?

Notarius əqdlərin, ərizələrin və digər sənədlərin layihələrini tərtib edə bilər, sənədlərin surətlərini və onlardan cıxarışları hazırlaya bilər, notariat hərəkətlərinin aparılması ilə əlaqədar məsləhətlər verə bilər, fiziki və huquqi şəxslərdən həmin hərəkətlərin aparılması üçün sənədləri və məlumatları tələb edə bilər.

## 2. Notariusun vəzifələri nədən ibarətdir?

Fiziki və hüquqi səxslərə aparılan notariat hərəkətləri ilə bağlı

onların huquq və vəzifələrini izah etməli, bu huquqların həyata keçirilməsi və qanuni mənafelərinin qorunması ucun koməklik gostərməlidir;

Hüquqi məlumatsızlıgın onlara vura biləcəyi ziyanın qarşısını almaq üçün notariat hərəkətlərinin aparılması nəticələri barədə onlara xəbərdarlıq etməlidir;

Bu Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına əməl etməli, peşə fəaliyyətinin həyata kecirilməsi ilə əlaqədar ona məlum olan məlumatları gizli saxlamalıdır;

**3. Dövlət Notariusu tərəfindən hansı notariat hərəkətlər aparıla bilər?**

Dovlət notariusu aşağıdakı notariat hərəkətlərini aparır: Əqdləri və etibarnamələri təsdiq edir;

Miras əmlakın muhafizə olunması üçün tədbirlər görür; Vərəsəlik hüququ haqqında şəhadətnamələr verir;

Ər-arvadın ümumi əmlakındakı paya mulkiyyət hüququ haqqında şəhadətnamələr verir; Yaşayış evlərinin, mənzillərin açıq hərracdan əldə olunmasına dair şəhadətnamələr verir; Sənədlərin surətlərinin və sənədlərdən çıxarışların düzgünlüyünü təsdiq edir; Sənədlərdəki imzaların həqiqiliyini təsdiq edir;

Sənədlərin bir dildən basqa dilə tərcuməsinin düzgünlüyünü təsdiq edir; Şəxsin sağ olması faktını təsdiq edir;

Şəxsin muəyyən yerdə olması faktını təsdiq edir; Şəxslə fotoşəkildəki səxsin eyniliyini təsdiq edir; Sənədlərin təqdim olunduğu vaxtı təsdiq edir;

Fiziki və hüquqi şəxslərin ərizələrini basqa fiziki və hüquqi şəxslərə verir;

Ohdəliyin icra predmetini saxlamağa, pul məbləğlərini, qiymətli kağızları və vəsiyyətnamələri depozitə qəbul edir;

İcra qeydləri aparır;

Veksellərə protestlər tərtib edir;

Çekləri odənilmək üçün təqdim edir və çeklərin odənilmədiyini təsdiq edir; Sənədləri saxlanmaq üçün qəbul edir;

Dəniz protestləri tərtib edir; Sübutları təmin edir.

**4. Xaricdə istifadə edilməsi məqsədilə sənədlərin rəsmiləşdirilməsi, dəniz protestlərinin tərtib edilməsi hansı notariusa həvalə edilə bilər?**

1 saylı notariat kontoru

Ünvan: Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi, 17 telefon: (0-12)493-63-16;493-45-14

**5. Notariat hərəkətləri neçə gün ərzində aparıla bilər**?

Notariat hərəkətləri rüsum odənildikdən sonra bunun üçün lazım olan bütün sənədlər təqdim

olunduğu gün aparılır.

**6. Hansı hallarda Notarius və notariat hərəkətlərini aparan digər vəzifəli səxslər notariat hərəkətlərini aparmaqdan imtina etməlidirlər?**

Hərəkətin aparılması qanuna zidd olduqda;

Hərəkəti başqa notarius və ya digər vəzifəli şəxs aparmalı olduqda;

Hərəkətin aparılması barədə fəaliyyət qabiliyyəti olmayan şəxs və ya lazımi səlahiyyəti olmayan numayəndə muraciət etdikdə;

Hüquqi şəxsin adından bağlanan əqd onun nizamnamə və ya əsasnaməsində gostərilən məqsədlərə zidd olduqda;

Qanunun tələblərinə uyğun olmayan əqd bağlandıqda;

Notariat hərəkətinin aparılması üçün təqdim olunan sənədlər qanunvericiliyin tələblərinə zidd olduqda və ya həmin sənədlərdə ayrıayrı şəxslərin sərəf və ləyaqətini ləkələyən məlumatlar olduqda;

Əqdin məzmunu tərəflərin həqiqi niyyətinə uyğun olmadıqda.

Notariuslar və notariat hərəkətini aparan digər vəzifəli səxşlər hərəkətin aparılmasına rədd cavabı almış şəxsin xahişi ilə üç gün muddətində imtina barədə əsaslandırılmış qərar çıxarmalı və ondan sikayət verilməsi qaydasını izah etməlidirlər.

**7. Notarus tərəfindən notariat qaydasında təsdiq edilmiş sənədin dublikatı verilirmi?** Notariusun və müvafiq icra hakimiyyəti orqanının verdiyi və ya təsdiq etdiyi sənəd itirildikdə, şəxslərin yazılı ərizəsinə əsasən itmiş sənədin dublikatı verilir.

**8. Notariat kontorları və dövlət orqanları tərəfindən notariat hərəkətlərinin aparılmasına görə dövlət rüsumunun dərəcələri**

**8.1. Daşınmaz əmlakın (mənzillərin, bağ evlərinin, qurğuların, tikililərin, torpaqların və başqa daşınmaz əmlakın) özgəninkiləşdirilməsi, mənzil sahələrinin və bağ evlərinin müvəqqəti istifadəyə verilməsi barədə müqavilələrin təsdiqi üçün:**

8.1.1. müqavilə üzrə əmlakın ərə (arvada), uşaqlara, valideynlərə, babaya, nənəyə, nəvəyə, qardaşa, bacıya keçirsə – 20 manat

8.1.2. müqavilə üzrə əmlak başqa şəxslərə keçirsə: Bakı şəhərində – 200 manat

digər şəhər və rayonlarda – 80 manat

8.1.4. mənzil sahələrinin və bağ evlərinin müvəqqəti istifadəyə verilməsi üçün – 20 manat

**8.2.Nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi müqavilələrinin təsdiqi üçün:**

8.2.1. müqavilə üzrə əmlak ərin (arvadın), uşaqların, valideynlərin, babanın, nənənin, qardaşın, bacının mülkiyyətinə keçirsə – 25 manat

8.2.2. müqavilə üzrə əmlak digər şəxsin mülkiyyətinə keçirsə – 50 manat

**8.3. Yaşayış evlərinin tikintisi üçün torpaq sahələrinin müddətsiz istifadəyə verilməsi haqqında müqavilələrin təsdiqi üçün:**

8.3.1. müqavilə üzrə istifadə hüququ ərə (arvada), uşaqlara, babaya, nənəyə, nəvəyə, valideynlərə, qardaşa, bacıya keçirsə – 10 manat

8.3.2. müqavilə üzrə istifadə hüququ digər fiziki və ya hüquqi şəxsə keçirsə – 20 manat

**8.4. Kredit müqavilələrinin təminatı kimi bağlanılan girov (ipoteka) müqavilələri üzrə:**

8.4.1. dəyəri 2200 manatadək – 5 manat

8.4-1. İpoteka krediti hesabına alınan yaşayış sahəsinə dair qarışıq müqavilə formasında bağlanan alqı-satqı və ipoteka müqaviləsinin təsdiqi üçün:

8.4-1.1. Bakı şəhərində – 110 manat

8.4-1.2. digər şəhər və rayonlarda – 44 manat

8.4-2. Qanunvericiliklə nəzərdə tutulmuş güzəştli ipoteka krediti hesabına alınan yaşayış sahəsinə dair qarışıq müqavilə formasında bağlanan alqı-satqı və ipoteka müqaviləsinin təsdiqi üçün:

8.4-2.1. Bakı şəhərində – 55 manat

8.4-2.2. digər şəhər və rayonlarda – 22 manat

8.4.2. dəyəri 2200 manatdan 5500 manatadək – 20 manat

8.4.3. dəyəri 5500 manatdan çox olduqda – 30 manat

**8.5. Qiymətləndirilən başqa müqavilələrin təsdiqi üçün:**

8.5.1. tərəflər ər (arvad), uşaqlar, valideynlər, baba, nənə, nəvə, qardaş, bacıdan ibarətdirsə – 10 manat

8.5.2. tərəflərdən biri kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fiziki və ya hüquqi şəxsdirsə – 10manat

8.5.3. tərəflər digər fiziki və hüquqi şəxsdirsə – 80 manat

**8.6. Əmlak bölgüsü, zaminlik, təsis və başqa qiymətləndirilməyən müqavilələrin, əvvəllər bağlanmış müqavilələrin ləğvi barədə sazişin təsdiqi üçün:**

8.6.1. tərəflər ər (arvad), uşaqlar, valideynlər, baba, nənə, nəvə, qardaş, bacıdan ibarətdirsə – 10 manat

8.6.2. tərəflər digər fiziki və ya hüquqi şəxslərdən ibarətdirsə – 20 manat

**8.7. Vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilməsi üçün:**

8.7.1. qanunla müəyyən edilən bütün növbəli vərəsələrə (şəhadətnamənin qanun üzrə və ya vəsiyyətnamə üzrə verilməsindən asılı olmayaraq); 20 manat

**8.8. Ər-arvadın birgə nigah müddətində əldə etdikləri ümumi birgə əmlakındakı paya mülkiyyət hüququ haqqında şəhadətnamələrin verilməsi üçün – 10 manat**

**8.9. Nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi və ona sərəncam verilməsi ilə bağlı verilən etibarnamələrin təsdiqi üçün:**

8.9.1. etibarnamə ərə (arvada), uşaqlara, valideynlərə, babaya, nənəyə, nəvəyə, qardaşa, bacıya verilərsə – 10 manat

8.9.2. etibarnamə digər vətəndaşlara və ya hüquqi şəxslərə verilərsə – 20 manat

**8.11. Nəqliyyat vasitələrindən istifadə edilməsi və başqa etibarnamələrin təsdiqi üçün:**

8.11.1. etibarnamə ərə (arvada), uşaqlara, valideynlərə, babaya, nənəyə, nəvəyə, qardaşa, bacıya verilirsə – 5 manat

8.11.2. etibarnamə digər fiziki və ya hüquqi şəxslərə verilirsə – 20 manat

8.12. Vərəsəlik əmlakının mühafizəsi barədə tədbir görülməsi üçün – 20 manat

8.13. Dəniz protestlərinin tərtibi üçün – 20 manat

8.14. Vəsiyyətnamələrin təsdiqi üçün – 20 manat

8.15. Notariat qaydasında təsdiq edilmiş sənədlərin təkrarən verilməsi (dublikat) üçün – 5 manat

8.16. Sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünün təsdiqi (hər səhifəyə görə), sənədlərdən surət və çıxarışların düzgünlüyünün təsdiqi, sənədlərdəki imzanın həqiqiliyinin, həmçinin tərcüməçinin imzasının həqiqiliyinin (hər imza üçün) və vətəndaşla fotoşəkildəki şəxsin eyniliyinin təsdiqi üçün – 2 manat

8.17. İcra qeydlərinin aparılması üçün – 10 manat

8.18. Vətəndaşların, dövlət, idarə, müəssisə və təşkilatlarının, kooperativ və digər ictimai təşkilatların ərizələrinin başqa vətəndaşlara, dövlət idarə müəssisəyə təşkilatlarına, kooperativ və başqa ictimai təşkilatlara verilməsi və 10.1-10.17-ci maddələrdə göstərilən hərəkətlərdən başqa notariat hərəkətləri üçün – 5 manat

8.19. Müştərinin verdiyi bildiriş üzrə əvvəlcədən razılaşdırılmış vaxtda qəbulu üçün – 3 manat

8.20. Bu qanunla müəyyən edilmiş hallarda müştərini onun qabaqcadan verdiyi bildiriş üzrə iş yerindən kənarda notariat hərəkətlərinin aparılmasına görə getmək üçün – 10 manat

8.21. Notariusun iş yerindən kənarda notariat hərəkətlərinin aparılmasına görə olduğu vaxtın hər bir saatı üçün – 5 manat

8.24. Ödəniş qiymətli kağızlarına dair təsdiq qeydi və imtina (protest) aktlarının rəsmiləşdirilməsi üçün – 5 manat

8.25. Notariat fəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamənin müddətinin uzadılmasına görə – 50 manat

**dövlət rüsumunun ödənilməsinin xüsusiyyətləri**

9.1. Notariat hərəkətlərinin aparılmasına görə aşağıdakı hallarda dövlət rüsumu ödənilmir

9.1.1. doğumu, ölümü, övladlığa götürülməni və atalığı (analığı) təsdiqləyən sənədləri almaq üçün;

9.1.2. təminatlı kreditorun iştirakçısı olduğu girov müqaviləsi ilə bağlı notariat hərəkətləri aparılarkən dövlət rüsumu tutulmuşdursa, həmin müqavilədən irəli gələn borc öhdəliklərinin təmin edilməsi üçün iflas prosesi zamanı təminatlı kreditor ilə əmlak inzibatçısı arasında bağlanmış saziş ilə əlaqədar notariat hərəkətləri üzrə - təminatlı kreditor və əmlak inzibatçısı;

9.1.3. mənzil və ya ev (evin bir hissəsi) alqı-satqısı və dəyişdirilməsi ilə bağlı notariat hərəkətləri üzrə – birinci qrup işləməyən əlillər, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər, qaçqınlar və məcburi köçkünlər;

9.1.4. Mülki-hüquqi əqdlərin bağlanması zamanı, habelə mənzil (fərdi ev) alınması və ya dəyişdirilməsi əqdləri ilə bağlı notariat hərəkətləri üzrə – "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər və qəyyumluqda (himayədə) olan uşaqlar;

9.1.5. pensiya, müavinət, yardım və alimentin alınması üçün verilən etibarnamələr üzrə.

9.2. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində dövlət büdcəsinə köçürülür.

Notarius tərəfindən notariat hərəkətlərinə görə dövlət rüsumunun qəbulu zamanı ödəyiciyə dövlət rüsumunun ödənilməsini təsdiq edən rəsmi sənədin (mədaxil qəbzi, kassa mədaxil orderi və s.) əsli verilir.

**Qeyd:** *"01 oktyabr 2012-ci il tarixdən nəqliyyat vasitələrinin sahiblik hüququna dair etibarnamələrin müddəti 49 ildən 1 ilə qədər azaldılmışdır"*

Nigahın pozulması qaydaları

**1. Nikahı pozmaq üçün hara müraciət etmək lazımdır?**

Ər-arvadın ikisidə boşanmağa razıdırlarsa və onların ümumi uşaqalrı yoxdursa, və yaxud uşaqlar 18 yaşına çatıbsa, o halda nikahı pozmaq üçün müvafiq icra hakimiyyəti orqanına, yəni Vətəndaşlıq Vəziyyəti Aktlarının Dövlət Qeydiyyatı (VVAQ) orqanına müraciət etmək lazımdır.

Ər-arvadın birinin boşanmağa razı olmadığı halda, və yaxud onların 18 yaşdan aşağı uşaqları varsa o halda məhkəməyə müraciət olunmalıdı.

Ər-arvadın razılığı olduqa, lakin onlardan biri VVAQ orqanında nikahın pozulmasından yayınırsa (məsələn ərizə yazmaqdan imtina edirsə), o halda nikahın pozulması məhkəmə qaydasında həyata

keçirilir.

*Qeyd: Arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ər nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz.*

**2. VVAQ orqanında nikahın pozulmasının qaydaları nədir?**

Ərlə  arvad arasında boşanma haqqında qarşılıqlı razılıq varsa, onlar nikahın pozulması haqda VVAQ orqanına ərizə təqdim edirlər. Bu ərizədə yetkinlik yaşına çatmayan uşaqlarının olub- olmadığını təstiq etməyə borcludurlar.

Nikahın pozulması haqqında ərizə ər-arvadın yaşadığı və ya onlardan birinin yaşadığı və ya nikahın qeydiyyata alındığı yerdə VVADQ orqanına verilir.

Nikahın pozulması haqqında ərizəyə nikah haqqında şəhadətnamə və qeydiyyat üçün dövlət rüsumunun ödənilməsi barədə qəbz əlavə edilməlidir.

Ər-arvaddan birinin üzürlü səbəbdən (ağır xəstəlik, uzun müddətli ezamiyyətə getmə, uzaq yerdə yaşama və s.) ərizə vermək üçün şəxsən gələ bilmirsə, o halda gəlmiş ikinci tərəf ər-arvadın birgə ərizəsini və ya ayrı-ayrı ərizələrini təqdim edir. Gəlməmiş tərəfin imzasının həqiqiliyi o\nun yaşadığı yerin VVADQ otqanı və konsulluq idarəsi tərəfindən və ya notariat qaydasında təstiq edilməlidir.

Nikahın pozulmasının qeydə alınması (yetkinlik yaşına çatmamış ümumi uşaqları olmayan ər- arvadın qarşılıqlı razılığı əsasında) 15 manat.

Nikahın pozulması ərizə verildiyi gündən **1 ay** keçdikdən sonra həyata keçirilir.

**Qeyd:** Azərbaycan Respublikasının hüdudlarından kanarda daimi və müvəqqəti yaşayan Azərbaycan vətəndaşlarının vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı konsulluq idarələri tərəfindən aparılır.

**3. Nikahın məhkəmə qaydasında pozulması: Məhkəməyə   nikahın pozulması üçün necə müraciət edilir?**

Boşanmaq istəyən insan məkəməyə iddia ərizəsi yazaraq şəxsən və ya nümayəndə vasitəsi ilə müraciət edir. Ərizəni verən şəxs iddiaçı, qarşı tərəf isə cavabdehdir.

Ərizə cavabdehin yaşadığı yer üzrə məhkəməyə verilir.

**Qeyd:** *idddiaçının yanında yetkinlik yaşına çatmayan uşaqlar olduqda və ya iddiaçı səhhətinə görə cavabdehin yaşadığı yerə getməyə çətinlik cəkdikdə   iddia   iddiaçının yaşadığı yerə görə verilə bilər.*

Ərizədə aşağıdakılar qöstərilməlidir:

ərizənin verildiyi məhkəmənin adı,

iddiaçı və cavabdehin adları, poçt ünvanları,

iddianının məzmunu: tələb, bu tələbin əsaslandırıldığı hallar (boşanmaq istəyinin səbəbləri

və s.), ərizəyə əlavə edilən sənədlərin siyahısı.

Nikahın pozulması ilə bağlı tələbləri, məsələn uşaqların kiminlə qalmağı məsələsi və ya aliment tələbi, ərizədə göstərilə bilər.

Ərizəyə aşağıdaki sənədlər əlavə olunur:

iddia ərizəsinin surəti,

dövlət rüsumunun ödənilməsi haqqında qəbz (5 manat məbləğində "KapitalBanka ödənilir), nümayəndə varsa onun səlayyihətlərini təstiq edən sənəd,

nikah haqqında şəhadətnamə,

birgə uşaqlar varsa, onların doğum haqında şəhadətnamələrinin surəti.

**4. Nikahın məhkəmə qaydasında pozulması: nikahın məhkəmə qaydasında hansı müddətə pozulur?**

Nikahın məhkəmə qaydasında pozulması ər-arvadın bu barədə ərizə verdikləri gündən 1 aydan tez olmayaraq həyata keçirilir.

Əgər ər və arvad ikisidə boşanmağa razıdılarsa, məhkəmədə  boşanma səbəbləri araşdırılmadan nikah pozulur

Onlardan biri boşanmağa razı deyilsə, məhkəmə ər-arvadın barışması üçün 3 ay vaxt təyin edə bilər.

3 aydan sonra barışıq olmadıqda nikah pozulur.

Nikahın pozulmasının qeydə alınması (məhkəmə qətnaməsi əsasında) 15 manatdır.

**5. Nikah pozulduqda yetkinlik yaşına çatmayan uşaqlar kiminlə qalır?**

Ər-arvad yetkinlik yaşına çatamyan uşaqların kiminlə qaqldığını razılaşdırıb bu barədə məhkəməyə saziş təqdim edə bilərlər.

Belə razılıq yoxdursa, və ya saziş uşaqların və ya tərəflərdən birinin marağını pozursa, məhkəmə boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalmasını uşaqların hüquq və mənafelərini, onların rəyini və sair halları (uşaqların qardaş və bacılarına, valideynlərdən hər birinə olan bağlılığı, valideynlərin əxlaqi və digər şəxsi keyfiyyətləri, uşağın yaşı, onun inkişafı və tərbiyəsi üçün şərait yaradılması) nəzərə almaqla müəyyən edir.

Uşaqlardan ayrı yaşayan valideyn onlarla ünsiyyət hüququna, uşaqların tərbiyə və təhsili ilə bağlı məsələlərin həll edilməsində iştirak etmək hüququna malikdir.

Uşaqlarla yaşayan valideyn uşağın fiziki, psixi sağlamlığına, onun əxlaqi sağlamlığına  zərər yetirməyən digər valideynə mane olmamalıdır. Əks halda uşaqlardan ayrı yaşayan valideyn uşaqla ünsiyyətdə olmaq hüququnu  müdafiə etmək üçün məhkəməyə müraciət edə bilər. Ayrı yaşayan valideynin uşaqla görüşmə qaydası və vaxtı məhkəmə qaydasında müəyyən edilir.

**6. Aliment necə ödənilir?**

Aliment ödənilməsi barədə valideynlər öz aralarında razılıq əldə edib bu barədə saziş bağlaya bilərlər. Belə saziş olmadıqda aliment məhkəmə qaydasında tutulur.

***Alimentin ödənilməsi barədə saziş***

Bu saziş alimenti ödəməli olan şəxslə alimenti alan şəxs arasında yazılı formada bağlanır və notariat qaydasında təsdiq olunur. Notariat qaydasında təsdiq edilmiş saziş icra vərəqəsi qüvvəsinə malik olur. Sazişdə alimentin miqdarı, ödənilmə qaydası və şərtləri əksini tapmalıdır. Saziş tərəflərin qarşılıqlı razılığı əsasında istənilən vaxt dəyişdirilə və pozula bilər- yazılı şəkildə notariat qaydasında təsdiq edilməklə. Aliment ödənilməsi barədə sazişi icra etməkdən birtərəfli qaydada imtina etmək və onun şərtlərini birtərəfli qaydada dəyişdirmək olmaz. Tərəflərin maddi və ailə vəziyyətində əsaslı dəyişiklik olduqda və sazişin dəyişdirilməsi və ya pozulması barədə razılıq əldə edilmədikdə bu barədə məhkəmə qarşısında iddia qaldırmaq olar.

**7. Məhkəmə qaydasında aliment tutulmasının qaydaları nədir?**

Aliment almaq hüququ olan şəxs (ər ya arvad) nikahın pozulduğu vaxtdan asılı olmayaraq istənilən müddətdə məhkəməyə aliment tutulması barədə ərizə ilə müraciət edə bilər.

Aliment məhkəməyə müraciət edildiyi vaxtdan tutulur. Məhkəmə iddiaçının aliment almaq üçün məhkəməyə müraciət edənədək tədbirlər gördüyünü, lakin qarşı tərəfin aliment ödəməkdən boyun qaçırmasını müəyən edərsə, əvvəlki dövr üçün 3 illik müddət həddində verilə bilər.

Məhkəmə tərəfindən hər ay tutulan alimentin miqdarı aşağıdakı kimidir:

1 uşağa görə – qazancın və başqa gəlirlərinin dörddə bir hissəsi

2 uşağa görə – qazancın (başqa gəlirlərin) üçdə bir hissəsi

3 və daha çox uşağa görə – qazancın (başqa gəlirlərin) yarısı.

Bu payların miqdarı məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla azaldıla və artırıla bilər.

Şəxsin işlədiyi təşkilatın müdiriyyəti icra vərəqəsi əsasında hər ay onun əmək haqqından və başqa gəlirlərindən aliment tutmağa və əmək haqqı (başqa gəlir) verilən gündən ən geci 3 gün müddətində aliment alan şəxsin vəsaiti hesabına göndərməyə borcludur.

Aliment verən şəxs işdən çıxdıqda müəssisənin müdiriyyəti onun işdən çıxması haqqında, habelə məlum olduqda onun yeni iş və yaşayış yeri haqqında qətnamənin icra olunduğu yerdə məhkəmə icraçısına və aliment alan şəxsə 3 gün müddətində məlumat verməlidir.

Aliment verən şəxs iş yaşayış yerinin dəyişməsi haqqında, həmçinin əlavə qazancı (əvəzçiliklə işlərinə görə və s.) haqqında məhkəmə icraçısına məlumat verməlidir.

Məhkəmə qaydasında tutulan alimentin ödənilməsinə aşağıdakı hallarda xitam verilir:

uşaq yetkinlik yaşına çatdıqda, uşaq övladlığa götürüldükdə,

aliment ödəyən və ya aliment alan şəxs öldükdə.

## 8. Birgə ümumi əmlak dedikdə nə başa düşülür?

Ər-arvad arasında onların ümumi birgə əmlakı bölünə bilər. Nikah müddətində ər- arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır. Ər-arvadın ümumi birgə mülkiyyətinə daxildir:

Onların hər birinin əmək, sahibkarlıq və ya intellektual fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcədə xüsusi təyinatı olmayan digər pul ödəmələri (şikəstlik, sağlamlığın bu və ya digər formada pozulması nəticəsində əmək qabiliyyətinin itirilməsinə görə ödənilən məbləğ, maddi yardımın məbləği və s.);

Ər–arvadın ümumi gəlirləri hesabına əldə edilən daşınar və ya daşınmaz əşyalar, qiymətli kağızlar, kredit idarələrinə və ya s. kommersiya təşkilatlarına qoyulmuş paylar, əmanətlər, kapitaldan olan paylar və əmlakın ər-arvaddan kimin adına əldə olunmasından, yaxud əmanətin kimin adına və ya kim tərəfindən qoyulmasından asılı olmayaraq nikah dövründə ər-arvadın qazandığı hər hansı sair əmlak.

Nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzrlü səbəblərə görə müstəqil qazancı olmayan ər (arvad) də ümumi əmlak üzərində hüquqa malikdir. Bu norma hər şeydən əvvəl işləməyən qadınların qanuni hüquqlarının müdafiəsi məqsədlərinə xidmət edir. Belə ki, bu halda arvadın ev işlərinin görməsi işləyən ərin əməyinə bərabər tutulur.

Nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik  qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir (ər-arvadın hər birinin ayrıca əmlakıdır).

Zinət əşyaları istisna olmaqla, fərdi istifadə əşyaları (geyim,və s.) nikah zamanı ər-arvadın ümumi vəsaiti hesabına əldə edilsə də, ər-arvaddan kimin istifadəsində olubsa, ona məxsusdur.

Yetkinlik yaşına çatmayan uşaqların tələbatını ödəmək üçün əldə olunan əşyalar (geyim, paltar, ayaqqabı, məktəbli və idman ləvazimatları, musiqi alətləri, uşaq kitabxanası və s.) bölünmür və əvəzi ödənilmədən uşaqları ilə birgə yaşayan valideynə verilir.

Ər-arvadın ümumi əmlakı hesabına yetkinlik yaşına çatmayan ümumi uşaqların adına qoyulmuş əmanətlər həmin uşaqlara məxsus hesab edilir və ümumi əmlakın bölünməsi zamanı nəzərə alınmır.

## 9. Ər-arvadın ümumi əmlakı necə bölünür?

Ər-arvadın ümumi əmlakı onların sazişi əsasında bölünə bilər. Belə saziş ər-arvadın arzusu ilə notariat qaydasında təsdiq edilə bilər.

Mübahisə olduqda, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir. Məhkəmə ər-arvadın ümumi əmlakını bölərkən onların tələbi ilə hər birinə çatacaq əmlakı müəyyən edir. Ər-arvaddan birinə, digəri ona çatası payın dəyərini aşan əmlak verildikdə, bunun əvəzində digərinə müvafiq məbləğdə pul və ya başqa kompensasiya verilə bilər.

Məhkəmə ər-arvadın ailə münasibətlərinə xitam verildiyi və ayrı yaşadığı   dövrdə hər birinin qazandığı əmlakı onların hər birinin mülkiyyəti hesab edə bilər.

**10. Ər-arvadın ümumi əmlakın bölünməsi zamanı paylar necə müəyyən edilir?**

Ər-arvad arasındakı müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, onların ümumi əmlakın bölünməsi zamanı bu əmlakdakı payları bərabər hesab edilir.

Ayrı-ayrı hallarda məhkəmə yetkinlik yaşına çatmayan uşaqların mənafeyini və (və ya) ərin (arvadın) diqqətəlayiq mənafeyini, o cümlədən ər-arvaddan biri üzrsüz səbəbdən gəlir əldə etmədiyi və ya birgə mülkiyyəti ailənin mənafeyinə zidd olaraq sərf etdiyi hallarda nəzərdə alıb onların birgə mülkiyyətinin bölünməsi zamanı payları bərabər bölməyə bilər.

Ümumi əmlak bölünərkən ər-arvadın ümumi borcları onun payına uyğun olaraq müəyyən edilir.

**10. Ümumi birgə əmlakın bölünməsinə dair hansı müddətdə məhkəməyə müraciət etmək olar?**

Nikah pozulduğu vaxtdan **3 il** müddətində ər-arvadın ümumi əmlakının bölünməsinə dair tələblə iddia qaldırmaq olar.

**11. Nikahın pozulması dövlət qeydiyyatına necə alınır?**

Məhkəmə qaydasında nikahın pozulmasını VVAQ orqanında qeydə alınmalıdır. Bunun uçün ər və arvad hər ikisi, həm də onlardan biri ərizə ilə qətnamənin çıxarıldığı yer üzrə müraciət edə bilər.

Nikahın pozulması haqqında qeyd aparıldıqda nikahın pozulması haqqında şəhadətnamə verilir.

Ər-arvaqddan yalnız birinin ərizəsi əsasında nikahın pozulması qeydə alındıqda nikah xətam olunmuş hesab edilir və nikahın pozulması haqqında şəhadətnamə almış şəxs yeni nikah bağlaya bilər.

Ər (arvad) nikahın pozulması haqqında şəhadətnaməni alana qədər yenidən nikaha daxil ola bilməz.

Əmək hüququ

**1. Bir iş ili üçün əmək məzuniyyətinə görə əmək haqqı necə hesablanır?**

Məzuniyyət günlərinin əmək haqqını müəyyən etməkdən ötrü məzuniyyətdən əvvəlki 12 təqvim ayının əmək haqqının cəmlənmiş məbləğini 12-yə bölməklə orta aylıq əmək haqqının məbləği tapılır və alınan məbləği ayın təqvim günlərinin orta illik miqdarına — 30,4-ə bölmək yolu ilə bir günlük əmək haqqının məbləği müəyyən edilir. Bu üsul ilə alınmış bir günlük əmək haqqının məbləği, məzuniyyətin müddətinin təqvim günlərinin sayına vurulur.

**2. Hamiləliyə və doğuşa görə neçə gün məzuniyyət verilir?**

Hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. Doğuş çətin olduqda, iki və daha çox uşaq doğulduqda doğuşdan sonrakı məzuniyyət 70 təqvim günü müddətində verilir.

Kənd təsərrüfatı istehsalında çalışan qadınlara hamiləliyə və doğuşa görə məzuniyyət aşağıdakı müddətlərdə verilir

normal doğuşda 140 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 70 təqvim günü);

doğuş çətin olduqda 156 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 86 təqvim günü);

iki və daha çox uşaq doğulduqda 180 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 110 təqvim günü).

### 3. Əmək məzuniyyətindən istifadə başqa vaxta keçirilə bilərmi?

Bəli başqa vaxta keçirilmə mümkündür. Əmək məzuniyyətlərinin verilmə vaxtı işəgötürənin və işçinin təşəbbüsü ilə əsaslandırılmaqla onların qarşılıqlı razılığı ilə başqa vaxta keçirilə bilər. Əmək məzuniyyətinin başqa vaxta keçirilməsi dedikdə, cari ildə məzuniyyətinin verilmə növbəsində nəzərdə tutulan vaxtın bir aydan başqa aya, cari iş ilindən növbəti iş ilinə, habelə növbəti təqvim ilinə keçirilməsi başa düşülür. İşçinin təşəbbüsü ilə aşağıdakı hallarda əmək məzuniyyəti başqa vaxta keçirilə bilər:

əmək qabiliyyəti müvəqqəti itirildikdə;

əmək məzuniyyəti ilə sosial məzuniyyət bir vaxta düşdükdə;

işəgötürənin tapşırıqlarını yerinə yetirmək üçün başqa yerə ezam edildikdə;

İşçiyə əmək məzuniyyətinin müəyyən edilmiş növbədə nəzərdə tutulan vaxtda verilməsinin istehsalın, işin, xidmətlərin normal gedişinə xələl gətirə biləcəyi hallarda işəgötürənin təşəbbüsü və işçinin razılığı ilə əmək məzuniyyəti başqa vaxta keçirilə bilər. Tərəflərin qarşılıqlı razılığı ilə əmək məzuniyyətinin istifadə edilməyən hissəsi növbəti iş ili üçün əmək məzuniyyəti ilə birləşdirilə bilər.

### 4. Qanunsuz olaraq işdən azad edildikdə nə etmək olar?

İddia ərizəsi ilə məhkəməyə müraciət edərək hüquqların bərpasını tələb etmək lazımdır. Bu zaman iddia tələbi aşağıdakı kimi qoyulmalıdır “İşə bərpa və məcburi iş buraxma müddəti üçün əmək haqqının ödənilməsinə dair”. İşin hallarından asılı olaraq iddia tələbinin həcmi artırılıb azaldıla bilər.

Həmçinin nəzərə alamaq lazımdır ki, əksər əmək mübahisələri üzrə 1 aylıq müddət tətbiq edilir. Yəni hüququnuzun poulduğunu aşkar etdiyiniz gündən məhkəməyə 1 təqvim ayı ərzində müraciət edə bilərsiz ( hüququn pozulmasının aşkar edildiyi gün dedikdə işçiyə müvafiq əmrin, sərəncamın, qərarın, əmək kitabçasının, haqq-hesab sənədlərinin kitabçasının, vərəqəsinin, çekinin verildiyi, həmçinin əmək müqaviləsinin şərtlərinin işəgötürən tərəfindən müvafiq qaydada sənədləşdirilmədən bilə-bilə qəsdən pozulduğu gün başa düşülməlidir).

### 5. Işdən çıxarkən işçiyə istifadə etmədiyi məzuniyyət üçün məzuniyyət haqqı ödənilirmi?

Əmək müqaviləsinə xitam verilməsinin səbəbindən və əsasından asılı olmayaraq işçiyə işdən çıxan günədək hər hansı şərt və ya məhdudiyyət qoyulmadan istifadə etmədiyi bütün iş illərinin əsas məzuniyyətlərinə görə pul əvəzi ödənilməlidir. Əmək münasibətlərinə xitam verilərkən təhsil və yaradıcılıq məzuniyyətlərinə, habelə sosial məzuniyyətlərə görə pul əvəzi verilmir.

Əmək pensiyası

**1. Yaşa görə əmək pensiyasına çıxdıqda sığorta stajı neçə il olmalıdır?**

Azı 12 il sığorta stajı olmalıdır

**2. Kişilər və qadınlar 12 il sığorta stajları olduqda hansı yaş həddində yaşa görə əmək pensiyasına çıxa bilərlər?**

62 yaşına çatmış kişilərin və 57 yaşına çatmış qadınların azı 12 il sığorta stajı olduqda (bu Qanunun qüvvəyə mindiyi günədək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ vardır.

*Kişilər* üçün yaş həddi 2010-cu il yanvarın 1-dən başlayaraq 2012-ci ilin yanvarın 1-dək hər il altı ay artırılır, *qadınların* yaş həddi 2010-cu ilin yanvarın 1-dən başlayaraq 2016-cı ilin yanvarın 1-dək hər il altı ay artırılır.

**3. Neçə uşaqlı qadınlar yaşa görə əmək pensiyasına çıxmaq hüququna malikdirlər?**

Beş və daha çox uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş və azı 10 il sığorta stajı olan qadınlar müəyyən olunmuş yaş həddi hər uşağa görə 1 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququna malikdir

**4.Sağlamlıq imkanları məhdud uşağı olan anaların yaşa görə əmək pensiyasına çıxmağa görə sığorta stajı neçə il olmalıdır?**

Sağlamlıq imkanları məhdud uşağını səkkiz yaşınadək tərbiyə etmiş və azı 10 il sığorta stajı olmalıdır və anaların müəyyən olunmuş yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır.

**5. Uşaqlarını təkbaşına böyüdən ataların və qəyyumların yaşa görə əmək pensiyasına çıxmağa görə sığorta stajı neçə il olmalıdır?**

Ana vəfat etdiyinə və ya ana ilə nikaha xitam verildiyinə, yaxud ana valideynlik hüququndan məhrum edildiyinə görə 5 və daha çox uşağı növbəti nikah bağlamadan, təkbaşına səkkiz yaşınadək böyüdən ataların, habelə 5 və daha çox uşağı övladlığa götürüb təkbaşına səkkiz yaşınadək böyüdən ataların, həmçinin 5 və daha çox uşağı səkkiz yaşınadək böyüdən qəyyum kişilərin azı 10 il sığorta stajı olmalıdır və müəyyən olunmuş yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququna malikdir.

**6. Güzəştli şərtlərlə əmək pensiyasına çıxmaq üçün kişilərin və qadınlarin sığorta stajı neçə il olmalıdır ?**

Kişilər — 57 yaşına çatdıqda, azı 25 il sığorta stajına malik olduqda və bu müddətin azı 12 il 6 ayını həmin işlərdə, qadınlar — 52 yaşına çatdıqda, azı 20 il sığorta stajına malik olduqda və bu müddətin azı 10 ilini həmin işlərdə çalışmışlarsa, əmək şəraitinə görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ vardır.

**7. Hansı işlərə görə güzəştli şərtlərlə kişilər və qadınlar əmək pensiyasına çıxmaq hüququna malikdirlər ?**

Axırıncı iş yerindən asılı olmayaraq yeraltı işlərdə, incəsənətin xüsusi sahələrində, həmçinin əmək

şəraiti xüsusilə zərərli və ağır olan işlərdə (istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin *müvafiq icra hakimiyyəti orqanı* tərəfindən təsdiq olunan siyahısı üzrə həmin işlərdə çalışmışlarsa, əmək şəraitinə görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüquqları vardır.

**8. Əlilliyə görə əmək pensiyası nəyə görə təyin edilir?**

Əlilliyə görə əmək pensiyası *sığortaolunanın* xəstəlik və ya xəsarət nəticəsində yaranan əqli və ya fiziki qüsurlara görə əmək qabiliyyətinin məhdudlaşması ilə əlaqədar təyin edilir. Əlillik qrupları, əlilliyin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdudluğunun səbəbləri, habelə *onların* başvermə müddəti *müvafiq icra hakimiyyəti orqanı* tərəfindən qanunvericiliyə uyğun olaraq müəyyən olunur

**9. Hansı şərtlərə əlilliyə görə əmək pensiyası təyin edilir?**

Əlilliyə görə əmək pensiyası əlil və ya sağlamlıq imkanları məhdud sığortaolunana ümumilikdə sığorta stajı 5 ildən az olmamaq şərtilə əmək qabiliyyətli yaş dövrünün hər tam ili üçün 4 ay sığorta stajı olduqda təyin edilir.

**10. Hərbi qulluqçulara əlilliyə görə pensiya hansı şərtlərlə təyin edilir?**

Hərbi qulluqçulara (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) əlilliyə görə əmək pensiyaları xidmət müddətindən asılı olmayaraq, əlillik hərbi qulluqçuların xidmət etdiyi dövrdə və ya xidmətdən buraxıldıqdan sonra 3 aydan gec olmayaraq üz verdikdə, yaxud əlillik bu müddətdən sonra, lakin xidmət dövründə alınmış xəsarət (yaralanma, travma, kontuziya), xəstəlik nəticəsində üz verdikdə təyin edilir.

**11.Əlilliyə görə əmək pensiyasının məbləği hər qrupa görə neçə faizl təşkil edir?**

Əlilliyə görə əmək pensiyasının baza hissəsinin məbləği yaşa görə əmək pensiyasının baza hissəsinin məbləğinin I qrup əlillərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə 120 faizi (I qrup gözdən əlillərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə 200 faizi), II qrup əlillərə 100 faizi, III qrup əlillərə isə 55 faizi həcmində müəyyən edilir.

**12. Ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan şəxslər kimlərdir?**

Vəfat etmiş və ya həlak olmuş şəxslərin 18 yaşına çatmamış övladları:

Ata, ana, ər, arvad  müəyyən edilmiş pensiya yaşına çatmışdırsa, yaxud I və ya II qrup əlildirsə

Təhsil müəssisələrinin əyani şöbəsində təhsil alanlar, lakin ən çoxu 23 yaşına çatanadək;

Ata, ana, ər (arvad) pensiya yaşına — kişilər 62 yaşa, qadınlar 57 yaşa çatmışdırsa, yaxud I

və ya II qrup əlildirsə;

Yaşından və əmək qabiliyyətindən asılı olmayaraq valideynlərdən biri və ya ər (arvad), yaxud baba, nənə, qardaş, bacı vəfat etmiş və ya həlak olmuş ailə başçısının 8 yaşına çatmamış uşaqlarına, qardaşlarına, bacılarına, nəvələrinə baxırsa və işləmirsə.

**13. Ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği neçə faizlə hesablanır?**

Ailə başçısını itirməyə görə əmək pensiyasının baza hissəsinin məbləği hər iki valideynini itirmiş uşaqların və vəfat etmiş tənha ananın uşaqlarının hər biri üçün, habelə vəfat etmiş ailə başçısının bir ailə üzvü olduqda və pensiya hüququ olan bir ailə üzvü qaldıqda həmin şəxs üçün yaşa görə əmək pensiyasının baza hissəsinin 100 faizi məbləğində, digər ailə üzvlərinin hər biri üçün isə yaşa görə əmək pensiyasının baza hissəsinin 50 faizi məbləğində hesablanır.

**14. Əmək pensiyasının baza hissəsinə əlavələr necə hesablanır?**

Öhdəsində əmək qabiliyyəti olmayan ailə üzvləri olan işləməyən I və II qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə, həmçinin öhdəsində ailə başçısını itirməyə görə pensiya ilə təmin edilməli şəxslərə aid edilən əmək qabiliyyətsiz ailə üzvləri olan işləməyən hərbi qulluqçular sırasından olan əmək pensiyaçılarına — ailənin əmək qabiliyyəti olmayan hər üzvü üçün yaşa görə əmək pensiyasının baza hissəsinin 5 faizi məbləğində hesablanır

**15. I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının baza hissəsi neçə faiz təşkil edir?**

I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün — yaşa görə əmək pensiyasının baza hissəsinin 10 faizi məbləği təşkil edir

**16. Müharibə əlillərinin *və müharibə iştirakçıları sırasından olan əlillərin* yaşa görə əmək pensiyalarının baza hissəsinə edilən əlavələr neçə faiz təşkil edir?**

I qrup əlillərə — yaşa görə əmək pensiyasının baza hissəsinin 100 faizi məbləğində; II qrup əlillərə — yaşa görə əmək pensiyasının baza hissəsinin 70 faizi məbləğində; III qrup əlillərə — yaşa görə əmək pensiyasının baza hissəsinin 50 faizi məbləğində.

**17. Böyük Vətən müharibəsi iştirakçılarının və əlillərinin əmək pensiyalarının baza hissəsinə edilən əlavələr neçə faiz təşkil edir?**

Müharibə iştirakçılarına (müharibə əlilləri istisna olmaqla) — yaşa görə əmək pensiyasının baza hissəsinin 50 faizi məbləğində;

I qrup əlillərə — yaşa görə əmək pensiyasının baza hissəsinin 140 faizi məbləğində; II qrup əlillərə — yaşa görə əmək pensiyasının baza hissəsinin 110 faizi məbləğində;

III qrup əlillərə — yaşa görə əmək pensiyasının baza hissəsinin 90 faizi məbləğində.

**18. Yaşa görə əmək pensiyası nə vaxt təyin edilir?**

Yaşa görə əmək pensiyası, buna hüququ olan şəxsin müraciəti əsasında əmək pensiyası hüququnun yarandığı gündən, lakin bu qanunun qüvvəyə mindiyi gündən tez olmamaqla ömürlük təyin edilir.

**19. Əlilliyə görə əmək pensiyası nə vaxt təyin edilir?**

Əlilliyə görə əmək pensiyası, buna hüququ olan şəxsin müraciəti əsasında əlilliyin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdudluğunun müəyyən olunduğu gündən *müvafiq icra hakimiyyəti orqanının* müəyyən etdiyi bütün əlillik və ya sağlamlıq imkanlarının məhdudluğu dövrü üçün müəyyən edilmiş pensiya yaşına çatmış şəxslərə ömürlük təyin edilir.

**20. Ailə başçısını itirməyə görə əmək pensiyası nə vaxt təyin edilir?**

Ailə başçısını itirməyə görə əmək pensiyası, buna hüququ olan şəxsin müraciəti əsasında ailə başçısını itirməyə görə əmək pensiyası hüququnun yarandığı gündən müəyyən edilmiş pensiya yaşına çatmış şəxslərə ömürlük təyin edilir.

**21. Əmək pensiyasının bir növündən başqa növünə keçmə mümkündürmü?**

Bəli mümkündür, belə ki, əmək pensiyaçısının yaşa görə əmək pensiyası növündən əlilliyə görə əmək pensiyası növünə keçirilmə istisna olmaqla, əmək pensiyasının bir növündən başqa növünə keçmə hüququ vardır. Əmək pensiyasının bir növündən başqa bir növünə keçirilmə ərizəçi tərəfindən müvafiq əmək pensiyası təyin edilməsi üçün zəruri sənədlər təqdim edilməklə pensiyanın başqa növünə keçirilir.

**22. Əmək pensiyaçısı vəfat etdikdə alınmamış əmək pensiyası kimə ödənilir?**

Əmək pensiyaçısı vəfat etdikdə, onun ailəsinə pensiyaçının vəfatı tarixinə yaşa görə əmək pensiyasının baza hissəsinin üç misli məbləğində dəfn üçün müavinət verilir.

**23. Əmək pensiyaçısı vəfat etdikdə onu ailə üzvləri  dəfn etmədikdə,dəfn müavinatı o halda kimlərə ödənilməlidir?**

Əmək pensiyaçısını onun ailə üzvlərinə aid olmayan şəxslər dəfn etdikdə, dəfn üçün müavinət məhs onu dəfn edən şəxslərə ödənilir.

**24. Xaricdə yaşayan Azərbaycan vətəndaşlarına Azərbaycanda təyin edilmiş əmək pensiyası ödənilirmi?**

Bəli ödənilir, belə ki, Azərbaycan Respublikasının vətəndaşlığını saxlamış şəxslərin xaricdə olduqları müddətdə onlara Azərbaycan Respublikasında təyin edilmiş əmək pensiyası arzularına əsasən Azərbaycan Respublikasının banklarında olan şəxsi hesablarına və ya öz vəsaitləri hesabına yaşadıqları digər dövlətlərə köçürülür.

**25. Xaricdə yaşayan və Azərbaycan vətəndaşlığından çıxan şəxslərin Azərbaycanda təyin edilmiş əmək pensiyası ödənilirmi?**

Azərbaycan Respublikası vətəndaşlığından çıxmış şəxslər xaricdə olduqları müddətdə onlara yalnız əmək zədəsi və ya peşə xəstəliyi nəticəsində təyin edilmiş pensiyalar ödənilir. Bu pensiyaların başqa dövlətlərə köçürülməsi qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir.

**26. Etibarnamə üzrə əmək pensiyası ödənilə bilərmi?**

Bəli, əmək pensiyası etibarnamə üzrə də ödənilə bilər.

## Sosial müavinatlar

**1. Sosial müavinatlar nə deməkdir?**

Sosial müavinətlər ayrı-ayrı kateqoriya şəxslərə sosial yardım göstərilməsi məqsədilə aylıq və ya birdəfəlik ödənilən pul vəsaitidir

## 2. Sosial müavinat hansı müddətə təyin edilir?

Sosial müavinat aşağıdakı müddətlərə təyin edilir:

dövlət qulluqçularına ömürlük, yaşa görə müavinət – ömürlük;

əlilliyə görə müavinət-əlillik müddətinə;

sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət – 18 yaşınadək uşaqların müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş sağlamlıq imkanlarının məhdudluğu müddətinə;

ailə başçısını itirməyə görə müavinət:

vəfat etmiş şəxsin uşaqlarına – 18 yaşına çatanadək (əyani təhsil alanlara təhsili bitirənədək, lakin 23 yaşdan çox olmamaqla);

vəfat etmiş şəxsin 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlil uşaqlarına – əlillik müddətinə;

vəfat etmiş şəxsin 8 yaşınadək uşaqlarına baxan və işləməyən (yaşından və əmək qabiliyyətindən asılı olmayaraq) valideynlərdən, qardaş, bacı, baba və nənələrdən birinə – uşağın 8 yaşınadək. müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət – onu almaq hüququ olan şəxs qanunvericiliklə müəyyən edilmiş hallarda bu hüququ itirənədək;

3 yaşınadək uşağa qulluğa görə müavinət – müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən şəxs qismən ödənişli sosial məzuniyyətə çıxdığı gündən məzuniyyət müddətinə;

müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərin 16 yaşınadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşınadək) uşaqlarına müavinət:

uşağın 16 yaşı tamam olan ayın sonunadək;

ümumtəhsil məktəblərində əyani təhsil alanlara – 18 yaşı tamam olan ayın sonunadək (təhsil müddətindən çox olmamaqla).

valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) müavinət - müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəyyumluq (himayəçilik) müəyyən edildiyi müddətə;

1 yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət – uşağın bir yaşı tamam olan ayın sonunadək.

## 3.Birdəfəlik müavinat növləri hansılardır?

Radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət müraciət edilən aydan sonrakı ayın 1-dən ildə bir dəfə ödənilməklə əlillik və ya sağlamlıq imkanlarının məhdudluğu müddətinə təyin edilir.

Uşağın anadan olmasına görə və dəfn üçün birdəfəlik müavinətlər müraciət etmə müddətindən asılı olmayaraq təyin edilir.

**4. Uşağın anadan olmasına görə verilən müavinat hansı müddətə qədər ödənilir?**

Yalnız bir dəfə uşaq anadan olanda ödənilir

**5. Uşağın anadan olmasına görə birdəfəlik müavinat aldıqda hansı sənədlər tələb olunur?**

Aşağıda göstərilən sənədlər tələb olunur: Valideynlərin şəxsiyyət vəsiqələrinin surəti; Uşağın doğum şəhadətnaməsinin surəti Nikah şəhadətnaməsinin surəti;

Yaşayış yerindən ailə tərkibinə dair arayış.

**Qeyd**: Arayışda valideynlərin işləyib işləməməsi göstərilməlidir;

Ailəyə məxsus torpaq üzərində hüquqları təsdiq edən sənəd;

**Qeyd:** Torpaq sahəsinə görə məcburi dövlət sosial sığortası ödənildikdə birdəfəlik müavinatı Sosial Müdafiə Fondu ödəyir, həmçinin valideynlər işləyirlərsə bu halda da müavinatı Fond ödəyir. Sosial Müdafiə Fondu torpaq sahəsinə dair məcburi dövlət sosial sığortası ödənilmədiyinə dair arayış verərsə bu halda müavinatı Sosial Müdafiəsi Mərkəzi ödəyir, habelə valideynlər işsizdirsə o halda da müavinat Mərkəz tərəfindən ödənilir.

**6. Sosial müavinat hansı hallarda təyin edilir?**

Yaşa görə müavinət – əmək qabiliyyəti olmayan şəxsin əmək pensiyası hüququ olmadıqda və işləmədikdə;

Əlilliyə müavinət – əmək qabiliyyəti olmayan şəxsin əmək pensiyası hüququ olmadıqda Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət-müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş şəxsin əmək pensiyası hüququ olmadıqda Ailə başçısını itirməyə görə müavinət:

Əmək qabiliyyəti olmayan şəxsin əmək pensiyası hüququ olmadıqda;

Yaşından və əmək qabiliyyətindən asılı olmayaraq valideynlərdən, qardaş, bacı, baba və nənələrdən biri vəfat etmiş şəxsin 8 yaşınadək uşaqlarına baxdıqda və işləmədikdə.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərə kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinət – onu almaq hüququ müəyyən edilmiş şəxslərin əmək pensiyası hüququ olmadıqda;

3 yaşınadək uşağa qulluğa görə müavinət – 3 yaşınadək uşağa qulluq göstərən, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən şəxs qismən ödənişli sosial məzuniyyətdə olduqda;

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş bəzi kateqoriya şəxslərin 16 yaşınadək (ümumtəhsil müəssisələrində əyani təhsil alanlar üçün 18 yaşınadək) uşaqlarına müavinət bəzi kateqoriya şəxslərin müvafiq icra hakimiyyəti orqanı tərəfindən onu almaq hüququ müəyyən edildikdə;

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına

(himayəçilərinə) müavinət – müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəyyum (himayəçi) təyin edilmiş şəxslərin “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikası Qanununa əsasən sosial yardım almaq hüququ olduqda və barəsində qəyyumluq (himayəçilik) təyin edilmiş uşaqlar tam dövlət təminatında olmadıqda 1 yaşınadək uşağı olan aztəminatlı ailələrə müavinət – ailənin “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikası Qanununa əsasən ünvanlı sosial yardım almaq hüququ olduqda;

Radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün müavinət – şəxsin radiasiya qəzası nəticəsində əlil olduğunu və Çernobıl AES qəzası nəticəsində zərər çəkmiş şəxslərin 18 yaşınadək uşaqlarının qəza nəticəsində sağlamlıq imkanlarının məhdudluğunu təsdiq edən müvafiq icra hakimiyyəti orqanının arayışı təqdim edildikdə;

Uşağın anadan olmasına görə müavinət - müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş arayış təqdim edildikdə;

Dəfn üçün müavinət şəxs vəfat etdikdə.

Ünvanlı sosial yardım

**1.Ünvanlı dövlət sosial yardımı kimlər üçün təyin olunur?**

Sosial yardım yalnız aztəminatlı ailələr üçün təyin olunmalıdır

**2.Sosial yardımı hansı ailələr ala bilərlər?**

Azərbaycan Respublikasının ərazisində yaşayan və müraciətdən əvvəlki son 1 il ərzində orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətli olmaması, ailənin əmək qabiliyyətli üzvünün Baş Məşğulluq İdarəsinin yerli orqanında işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması və s.) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr dövlət büdcəsinin vəsaiti hesabına ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində sosial yardım almaq hüququna malikdirlər.

**3.Sosial yardım hansı müddətə təyin edilir?**

Sosial yardım onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən, 1 il müddətinə təyin olunur. Aztəminatlı ailə sosial yardım almaq üçün təkrar müraciət etmək hüququna malikdir.

**4.Sosial yardım təyin olunduqda ailə tərkibində nəzərə alınmayan şəxslər kimlərdir?**

Tam dövlət təminatında olan şəxslər (uşaq evi və internatlarda, qocalar və əlillər üçün internat evlərində, sağlamlıq imkanları məhdud şəxslər üçün müvafiq xüsusi təhsil müəssisələrində yaşayanlar);

Müddətli həqiqi hərbi xidmətdə olan şəxslər cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər; Axtarışda olan şəxslər;

Azərbaycan Respublikasının ərazisində yaşamayan Azərbaycan Respublikası vətəndaşları; Əcnəbilər

(Azərbaycan Respublikasının ərazisində daimi yaşayanlar istisna olmaqla

**5. Sosial yardım almaq üçün hansı sənədlər tələb edilir?**

Ailə üzvlərinin şəxsiyyət vəsiqəsinin əsli və surəti

Nikah, boşanma, doğum və ya ölüm haqqında şəhadətnamələrin surəti

Qəyyumluqda (himayədə) olan uşaqlar üçün qəyyumluq (himayəçilik) haqqında rayon

(şəhər) icra hakimiyyəti başçısının sərəncamının surəti

Ailə üzvünün müddətli həqiqi hərbi xidmətdə olması barədə hərbi komissarlıqdan arayış

Hər bir ailə üzvünün qazancı (əmək haqqı, pensiya, müavinət, təqaüd, aliment, kompensasiya, sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir, mülki-hüquqi müqavilə əsasında işləyənlərin qazancı və s.) barədə aidiyyəti orqanın arayışı;

Dövlət Sosial Sığorta Şəhadətnaməsi

İş yerindən gəlir (istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində zərərə görə verilən ödənclər də daxil olmaqla) haqqında arayış;

Ailənin mülkiyyətində və ya istifadəsində olan torpaq payı və həyətyanı torpaq sahəsi barədə müvafiq sənədlərin surəti;

ailə üzvlərindən hər hansı birinin ali, orta ixtisas və ya texniki peşə təhsili alması barədə təhsil müəssisəsindən arayış;

ailə üzvləri tərəfindən əmlakın icarəyə (kirayəyə) verilməsi və ya icarəyə (kirayəyə)

götürülməsi barədə müqavilənin surəti;

məhkəmə tərəfindən ailə üzvünün itkin düşmüş və yaxud ölmüş hesab edilməsi barədə məhkəmə qərarının surəti;

ailə üzvünün axtarışda olması və ya olduğu yerin məlum olmaması barədə müvafiq orqanın arayışı;

ailə üzvünün azadlıqdan məhrum edilməsi barədə cəzaçəkmə müəssisəsinin arayışı,

ailə üzvünün tam dövlət təminatında olması barədə müvafiq xidmət müəssisəsinin arayışı.

**6.Hansı halllarda sosial yardımın verilməsindən imtina olunur?**

Sosial yardımın verilməsinə təsir edəcək hallar barədə zəruri məlumatlar verilmədikdə, yaxud ailə tərkibi və ailə üzvlərinin gəlirləri barədə düzgün və ya tam olmayan məlumatlar və sənədlər verildikdə. Bu halda "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 10.2-ci maddəsinə uyğun olaraq həmin ailə 1 il müddətinə sosial yardım almaq hüququnu itirir;

Yardım üçün müraciətdən 1 il əvvəl ailə mənzil aldıqda və yaxud respublika üzrə təsdiq edilmiş

yaşayış minimumunun 10 mislindən çox məbləğdə təhsil haqqı (1006 AZN) ödədikdə və yaxud alqı-satqı etdikdə;

Ailənin istifadəsində nəqliyyat vasitəsi olduqda (dövlət tərəfindən reabilitasiya məqsədləri üçün verilmiş nəqliyyat vasitələri istisna olunmaqla)

Ailənin orta aylıq gəlirinin 50 faizindən çox məbləğdə aylıq kredit öhdəliyi olduqda;

Ailənin əmək qabiliyyətli, işləməyən üzvü Baş Məşğulluq İdarəsinin yerli orqanı tərəfindən təklif olunmuş iki münasib işdən imtina etdikdə (bu halda ailənin sosial yardım hüququna onun təkrar müraciəti əsasında 1 aydan sonra baxıla bilər).

***Qeyd:***

***Sosial yardımın təyin edilməsindən imtina edildiyi barədə komissiyanın qərarı çıxarıldığı vaxtdan 3 gündən gec olmayaraq sosial yardım verilməsindən imtina edilməsinin səbəbləri göstərilməklə ailəni təmsil edən şəxsə bildiriş verilir***

**7.Sosial yardım necə ödənilir?**

Sosial yardım ayda bir dəfə aztəminatlı ailənin yaşayış yeri üzrə ödəniş müəssisələri (bank və ya rabitə şöbəsi) vasitəsilə ödənilir.

Bələdiyyələr və onların vəzifələri

**1. Bələdiyyə nədir?**

Bələdiyyə – qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olur və o, yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Bələdiyyələr bərabərlik əsasında qurulur və fəaliyyət göstərirlər. Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir.

**2. Bələdiyyələr hansı səlahiyyətlərə malikdirlər?**

Bələdiyyələrin iclaslarında aşağıdakı məsələlər həll edilir: bələdiyyə üzvlərinin səlahiyyətlərinin tanınması, qanunla müəyyən edilmiş hallarda onların səlahiyyətlərinin itirilməsi və səlahiyyətlərinə xitam verilməsi; bələdiyyənin reqlamentinin təsdiq edilməsi; bələdiyyənin sədrinin və onun müavinlərinin, daimi və başqa komissiyaların seçilməsi; yerli vergilərin və ödənişlərin müəyyən edilməsi; yerli büdcənin və onun icrası haqqında hesabatların təsdiq edilməsi; bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam; yerli sosial müdafiə və sosial inkişaf proqramlarının qəbul və icra edilməsi; yerli iqtisadi inkişaf proqramlarının qəbul və icra edilməsi; yerli ekoloji proqramların qəbul və icra edilməsi.

Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər . Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri

nəzarət edirlər.

**3. Bələdiyyələr hansı dövlət qurumunun tabeçiliyindədirlər?**

Bələdiyyə – özünüidarəetmə formasında fəaliyyət göstərən qeyri hökümət qurumu olduğu üçün bir başa olaraq heç bir dövlət qurumuna tabe deyil. Bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinə kömək etmək, metodoloji yardım göstərilməsi və fəaliyyətinə inzibati nəzarətin keçirilməsi məqsədilə Ədliyyə Nazirliyinin nəzdində bələdiyyələrlə iş üzrə Mərkəz yaradılmışdır.

**4. Bələdiyyənin və bələdiyyə üzvlərinin hərəkətlərindən hara şıkayət etmək olar?** Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və (və ya) məhkəməyə qanunla müəyyənləşdirilmiş qaydada şikayət verilə bilər.

**5. Bələdiyyənin büdcəsi necə formalaşır?**

Bələdiyyənin büdcəsi yerli vergilər və ödənişlər, icra hakimiyyətləri tərəfindən bələdiyyəyə verilmiş əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə ayrılmış müvafiq zəruri maliyyə vəsaiti, bələdiyyə əmlakının özəlləşdirilməsindən, bələdiyyə əmlakının icarəyə verilməsindən, qanunla müəyyənləşdirilmiş qaydada özgəninkiləşdirməsindən, yerli lotereyalardan, bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə yerləşdirilən küçə reklamlarına görə daxil olan ödənişlər, bələdiyyə müəssisə, idarə və təşkilatlarının mənfəətindən tutulan vergi, dotasiyalar, subvensiyalar, transfert, ödənişləri, qanuna və bələdiyyələrin qərarlarına müvafiq fəaliyyəti nəticəsində yaranan başqa vəsait təşkil edir. Həmçinin yerli büdcələrin xərclərinin öz gəlirləri ilə təmin olmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər.

**6. Bələdiyyə torpaqların ayrılması zamanı hansı istiqamətverici sənədlərini əsas tutmalıdır?** Torpaq sahəsinin bələdiyyə mülkiyyətində olan müəssisə, idarə və təşkilatların istifadəsinə və ya fərdi yaşayış evinin tikintisi üçün Azərbaycan Respublikası vətəndaşlarının mülkiyyətinə verilməsi barədə, habelə hüquqi və fiziki şəxslərin mülkiyyətinə (icarəsinə) verilməsi məqsədilə hərracın (müsabiqənin) keçirilməsi barədə bələdiyyənin qərarı sahənin xüsusiyyətinə və torpağın ayrılma məqsədinə, mövcud texniki normalara, habelə yerquruluşu və şəhərsalma sənədlərinə uyğun olaraq qəbul edilir.

**7. Bələdiyyənin hərrac və ya müsabiqə predmeti olan torpaqları hərraca və ya müsabiqəyə çıxarılanadək hansı orqanlarla razılaşdırılmalıdır?**

DT və XK-nin rayon(şəhər) şöbələri və qeyri kənd təsərrüfatı üçün torpaq ayrılmasında həmçinin yerli icra hakimiyyətlərinin memarlıq və tikinti şöbələri ilə hərraca və ya müsabiqəyə çıxarılacaq torpaq sahələri razılaşdırılmalıdır.

**8. Bələdiyyələrin torpaq hərracları və ya müsabiqələrinin predmeti olacaq torpaqlarını mülkiyyətə kimlər əldə edə bilərlər?**

Azərbaycan Respublikasının vətəndaşları fərdi yaşayış evinin tikintisi üçün torpağın ayrılması istisna olmaqla, digər hallarda bələdiyyə torpaqları üzərində mülkiyyət hüququnu yalnız açıq torpaq hərracları və ya müsabiqələri vasitəsilə əldə edə bilərlər.

**9.Torpaq müsabiqəsinin qalibi kim ola bilər?**

Torpaq sahəsi mülkiyyətə və ya icarəyə müsabiqə yolu ilə verildikdə müvafiq olaraq alqı-satqı və ya icarə obyektinə ən yüksək alqı-satqı qiyməti və ya icarə haqqı təklif edən şəxs müsabiqənin qalibi hesab olunur.

**10. Bələdiyyələr tərəfindən hansı şəxslərə xərracdan kənar torpaq sahəsi satıla bilər?**
Bələdiyyə ərazisində daimi yaşamaqla ən azı 5 il yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşlarına, yaşına, xəstəliyə, ştatların ixtisarına, ailə vəziyyətinə görə ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçulara və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə əlil olmuş şəxslərə və həlak olanların ailəsinə fərdi yaşayış evinin tikintisi üçün torpağın ayrılması müvafiq bələdiyyənin qərarı ilə bilavasitə həyata keçiriləcək.

**11. Bələdiyyənin qərarı ilə bilavasitə torpaq hansı qiymətə satıla bilər?**

Fərdi yaşayış evinin tikintisi üçün bələdiyyənin bilavasitə qərarı ilə ayrılan torpağın hər 0,01 hektarının qiyməti şəhərlərin və rayon mərkəzlərinin müvafiq zonasında və ya müvafiq kadastr qiymət rayonuna daxil olan inzibati rayonda son torpaq hərracı və ya müsabiqəsi vasitəsilə satılan torpağın hər 0,01 hektarına görə ödənilən qiymətdən az ola bilməz.

**12. Bələdiyyələrin qərarı ilə hansı şəxslərə pulsuz torpaq sahələri verilir?**

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə əlil olmuş şəxslərə və həlak olanların ailəsinə, ehtiyata, və ya istefaya buraxılmış hərbi qulluqçulara fərdi yaşayış evinin tikintisi üçün müvafiq bələdiyyənin qərarı ilə torpaq sahəsi bir dəfə pulsuz verilir.

**13. Bələdiyyə ehtiyat fondunun kənd təsərrüfatına yararlı torpaqları mülkiyyətə satıla bilərmi?**

Bələdiyyə ehtiyat fondunun kənd təsərrüfatına yararlı torpaqları kənd təsərrüfatı istehsalı üçün hüquqi və fiziki şəxslərə yalnız icarəyə verilə bilər.

**14. Bələdiyyə ehtiyat fondunun torpaqları hansı növbəliliklə icarə verilə bilər?**

Bələdiyyə ehtiyat fondunun kənd təsərrüfatına yararlı torpaqları kənd təsərrüfatı istehsalı üçün yalnız icarə qaydasında istifadəyə aşağıdakı növbəliliyə əməl etməklə verilir: sovxozun və ya kolxozun ərazisində müvəqqəti məskunlaşmış məcburi köçkünlər; Azərbaycan Respublikasının müvafiq rayonunun (şəhərinin) ərazisində yaşayan torpaq payı almamış fiziki və hüquqi şəxslər; müvafiq ərazidə torpaq payı almış fiziki və hüquqi şəxslər; Azərbaycan Respublikasının digər fiziki və hüquqi şəxsləri; xarici ölkələrin fiziki və hüquqi şəxsləri.

**15. İcarə müqaviləsinin müddəti və müddətin uzadılmasında hansı qüzəştlər var?**

Torpaq hüquqi və fiziki şəxslərə qısa və uzunmüddətli icarəyə verilir. Qısamüddətli icarə 15 ilədək, uzunmüddətli icarə isə 15 ildən 99 ilədək müəyyən oluna bilər.

Azərbaycan Respublikasının 28 oktyabr 2008-ci il tarixli 709-IIIQD nömrəli Oanunu qüvvəyə minənədək hüquqi və fiziki şəxslərin istifadəsinə verilmiş bələdiyyə torpaqları üzərində istifadə müddəti bitdikdən sonra, həmin torpaqlar yalnız açıq torpaq hərracı və ya müsabiqəsi vasitəsilə

icarəyə verilə bilər. İlkin istifadəçi bu halda istifadəsində olmuş torpağı açıq torpaq hərracı və ya müsabiqəsində təkliflər eyni olduqda icarə hüququ ilə müvəqqəti istifadəyə əldə edə bilər.

**16. Bələdiyyə torpaqlarının mülkiyyətə (icarəyə) verilməsi məqsədilə torpaq hərracları və ya müsabiqələrinin keçirilməsi zamanı bərabər təkliflər irəli sürüldükdə hansı şəxslərə üstünlük verilir?**

torpağın əvvəlki istifadəçilərinə və ya icarəçilərinə;

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə əlil olmuş şəxslərə və həlak olanların ailəsinə;

yaşına, xəstəliyə, ştatların ixtisarına, ailə vəziyyətinə görə həqiqi hərbi xidmətdən ehtiyata və ya

istefaya buraxılmış, 20 təqvim ili və daha çox xidmət etmiş hərbi qulluqçulara (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa);

sərhədyanı və dağlıq ərazilərdə yaşayan, daimi yaşamaq üçün həmin ərazilərə köçən, təsərrüfatla məşğul olmaq istəyən gənclərə;

müvafiq ərazidə müvəqqəti məskunlaşmış məcburi köçkünlərə;

müvafiq bələdiyyənin ərazisində daimi yaşayan və eyni zamanda ən azı 5 il müddətində yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşlarına;

**17. Müsabiqə və ya hərrac nəticəsində yaranan müqavilə hansı qurumlarla bağlanılır?**
Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin müsabiqə və ya hərrac komissiyası tərəfindən verilən şəhadətnamə əsasında hərrac və və ya müsabiqədə qalib gəlmiş hüquqi və ya fiziki şəxslə bələdiyyə torpaqlarına dair münasibətdə müvafiq bələdiyyə, dövlət torpaqlarına dair münasibətdə isə DT və XK-nin yerli qurumları (rayon, şəhər şöbələri) arasında 20 gündən gec olmayaraq mülki və torpaq qanunvericiliyinə uyğun olaraq müvafiq müqavilə bağlanmalıdır.

**18. Vətəndaşlar tərəfindən fərdi yaşayış evinin tikintisi və digər məqsədlər üçün qeyri-qanuni istifadə edilən torpaq sahələri onların adına qanunиləşdiriləcəkmi?**

“Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək ( 29 iyun 2001-ci il tarixədək) fərdi yaşayış və bağ evlərinin, qarajların, habelə sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə zəruri obyektlərin tikintisi üçün qeyri-qanuni istifadə edilən ( müvafiq qaydada rəsmiləşdirilməmiş) bələdiyyə torpaqlarının hüquqi və fiziki şəxslərdən geri alınması mümkün olmadığı hallarda həmin torpaq sahələri bələdiyyənin qərarı ilə müsabiqə və ya hərrac keçirilmədən onları istifadə edənlərin mülkiyyətinə bilavasitə satılacaq bu şərtlə ki, həmin torpaq sahələri elektrik, rabitə, nəqliyyat, qaz, su, kanalizasiya və digər kommunikasiya xətlərinin mühafizə zolağında, habelə sürüşmə zonasında yerləşməmiş olsun. “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindiyi 29 iyun 2001-ci il tarixdən sonra fərdi yaşayış və bağ evlərinin, qarajların, habelə sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə zəruri obyektlərin tikintisi üçün qeyri-qanuni istifadə edilən ( müvafiq qaydada rəsmiləşdirilməmiş) bələdiyyə torpaqları müvafiq bələdiyyələrin qərarları ilə müsabiqəyə çıxarılmalıdır. Bu zaman möhürlü zərflərdəki təkliflər

bərabər olduğu halda, torpağın ilkin istifadəçisi üstün hüquqla həmin torpağı əldə edə bilər.

## Miqrasiya xidməti

**1. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün fərdi icazələrin verilməsi ilə əlaqədar hansı sənədlər tələb olunur?**

Ərizə-anket və ərizədə aşağıdakılar öz əksini tapmalıdır:

*hüquqi şəxslər üçün* — hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı;

*fiziki şəxslər üçün* — adı, atasının adı, soyadı, şəxsiyyəti təsdiq edən sənəd haqqında məlumatlar

(seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı);

əcnəbinin adı, atasının adı, soyadı, vətəndaşlığı, daimi yaşayış yerinin ünvanı, doğulduğu tarix və ölkə, cinsi, ixtisası, son beş ildə əmək fəaliyyəti haqqında məlumat, işləyəcəyi vəzifə və iş yerinin ünvanı.

əcnəbi işçinin nəzərdə tutulan işi yerinə yetirmək üçün tələb edilən ixtisasa malik olduğunu təsdiq edən sənədin notariat qaydada təsdiq olunmuş surəti;

nəzərdə tutulan hər bir iş yeri üçün əcnəbi işçinin cəlb edilməsi zəruriliyini əsaslandıran arayış; Azərbaycan Respublikası ərazisində başqa əsaslarla olan əcnəbinin Azərbaycan Respublikası ərazisində qalmasına hüquq verən müvafiq sənədin surəti.

*İşəgötürən hüquqi şəxs olduqda* – hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin notarial qaydada təsdiq edilmiş surətləri, fiziki şəxs olduqda isə fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədinin və fiziki şəxsə verilmiş vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surətləri.

*Azərbaycan Respublikasına gələn əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkə ərazisində qanuni əsaslarla yaşamaları və haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün müvafiq icazələrin verilməsi, onların yaşayış yeri üzrə qeydiyyata alınması məsələləri 20 iş günü ərzində həyata keçirilir.*

İşə düzələrkən müəyyən edilmiş qaydaları pozmasına görə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 339.1.3-cü maddəsinə əsasən, Dövlət Miqrasiya Xidməti tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla **300 (üç yüz)** manatdan **400 (dörd yüz)** manatadək məbləğdə cərimə edilirlər.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 53.8-ci bəndində nəzərdə tutulmuş hal müəyyən edildikdə isə işəgötürən tərəfindən qanunvericiliyin tələbləri pozulmaqla fərdi icazə alınmadan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin işə cəlb edilməsinə görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 30.000 (otuz min) manatdan 35.000 (otuz beş min) manatadək məbləğdə cərimə tətbiq edilir.

**2. Hansı hallarda Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmək mümkündür?**

Azərbaycan Respublikasının vətəndaşlığına qəbul ilə əlaqədar tələb olunan sənədlər:

Azərbaycan Respublikası ərazisində son beş il ərzində fasiləsiz olaraq qanuni əsaslarla daimi yaşayan, qanuni gəlir mənbəyi olan, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət olunması barədə öhdəlik götürən, habelə Azərbaycan Respublikasının dövlət dilini bilməsi haqqında sənəd təqdim edən əcnəbi və vətəndaşlığı olmayan şəxs mənşəyindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən asılı olmayaraq qanunvericiliyə müvafiq surətdə öz vəsatəti ilə Azərbaycan Respublikası vətəndaşlığına qəbul edilə bilər.

Bunun üçün əcnəbi və vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikası Prezidentinin adına yazılmış, nümunəsi Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilən ərizə-anketlə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidir.

Vətəndaşlığa qəbul ilə bağlı tələb olunan sənədlər:

Azərbaycan Respublikasının Prezidentinin adına ərizə (səbəbini göstərmək şərti ilə);

tərcümeyi-hal;

şəxsiyyəti təsdiq edən sənədin surəti (notarial qaydada təsdiq olunmuş);

Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsinin surəti;

Azərbaycan Respublikasının vətəndaşı olan yaxın qohumunun şəxsiyyətini təsdiq edən sənədinin surəti;

Azərbaycan Respublikasında son beş il ərzində yaşaması barədə yaşayış yerindən arayış;

ailə tərkibi haqqında arayış;

Azərbaycan Respublikasının dövlət dilini bilməsi barədə Təhsil Nazirliyindən arayış;

4 ədəd fotoşəkil (3×4 sm ölçüdə);

qanuni gəlir mənbəyi olduğunu təsdiq edən sənəd (iş yerindən arayış, pensiya, təqaüd və ya sosial yardım alınması haqqında arayış, aliment alınması haqqında arayış, himayəçiliyində olan şəxslərin gəlirləri haqqında arayış, vərəsəlik şəhadətnaməsi, qanunla qadağan edilməyən fəaliyyətdən əldə edilən gəlirlər haqqında hər hansı digər sənəd);

«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikası Qanununun 14- cü maddəsinin dördüncü hissəsinin 1-ci bəndində nəzərdə tutulmuş elm, texnika, mədəniyyət və ya idman sahələrində yüksək nailiyyətləri olan şəxslər üçün — onu Azərbaycan Respublikasına dəvət edən dövlət orqanının əsaslandırılmış vəsatəti;

dövlət rüsumunun ödənilməsi haqqında qəbz (110 manat).

**3. Hansı hallarda əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verilə bilər?**

həmin şəxslər Azərbaycan Respublikası vətəndaşı ilə yaxın qohumluq (ana, ata, bacı, qardaş, oğul, qız, ər, arvad); münasibətlərində olduqda

həmin şəxslər Azərbaycan Respublikası vətəndaşı ilə nikaha daxil olduqda;

həmin şəxslər ölkə iqtisadiyyatına 500.000 manat məbləğində investisiya qoyduqda;

həmin şəxslər Azərbaycan Respublikasının banklarına 50.000 manat məbləğində pul vəsaiti qoyduqda;

həmin şəxslər Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyəti ilə məşğul olmaq üçün qanunvericiliklə müəyyən edilmiş qaydada fərdi icazə aldıqda;

həmin şəxslər Azərbaycan Respublikasının təhsil müəssisələrində əyani təhsil aldıqda; həmin şəxslər iqtisadiyyat, sənaye, müdafiə, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda.

**4. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə əlaqədar hansı sənədlər tələb olunur?**

müvəqqəti yaşamaq üçün icazə verilməsi barədə ərizə-anket – 1 ədəd;

əcnəbinin ölkə ərazisinə daxil olduğu pasportunun və ya onu əvəz edən sənədinin, vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədinin surəti;

müvəqqəti yaşamaq üçün icazənin verilməsinə əsas olan halların mövcudluğunu notarial və ya ona bərabər tutulan qaydada təsdiq edən sənəd;

əcnəbinin sağlamlığı haqqında tibbi arayış;

əcnəbi və vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikası ərazisində olmasına və ya yaşamasına hüquq verən müvafiq sənədin surəti;

3×4 ölçüdə fotoşəkil – 2 ədəd (qırmızı fonda);

14-17 yaşında olan uşaqların notarial qaydada təsdiq olunmuş yazılı razılığı;

yaşayış sahəsinə köçmək üçün əsas verən sənədin (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə və ya kirayə müqaviləsi, yaxud Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş başqa sənədin) notarial qaydada təsdiq olunmuş surəti;

vətəndaşa yaşayış sahəsi verən şəxsin Dövlət Miqrasiya Xidməti rəisinin adına notarial qaydada təsdiq edilmiş ərizəsi;

vətəndaşa yaşayış sahəsi verən şəxsin şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti.

**5. Hansı hallarda miqrant statusu almaq mümkündür və bunun üçün hansı sənədlər təqdim olunmalıdır?**

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi

vəziyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin yeddinci hissəsinə əsasən, ölkə ərazisində azı 2 (iki) il müvəqqəti icazə əsasında yaşadıqdan sonra “İmmiqrasiya haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin ikinci hissəsinə uyğun olaraq daimi yaşamaq hüququ (immiqrant statusu) almaq üçün Dövlət Miqrasiya Xidmətinə müraciət edə bilərlər.

Əcnəbilər vəsatətlərində Azərbaycan Respublikasına immiqrasiyasını əsaslandırmalıdırlar. “İmmiqrasiya haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq maddəsi ölkənin ali təhsil

müəssisələrində əyani təhsil alan və haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərə şamil olunmur.

Azərbaycan Respublikasının ali təhsil müəssisələrində əyani təhsil alan əcnəbi tələbələrə ölkə ərazisində müvəqqəti yaşama icazəsi hər tədris ili üçün verilir.

“Əmək miqrasiyası haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün əcnəbiyə verilən fərdi icazənin müddəti 1 ilədəkdir və bu müddət

4 dəfə uzadıla bilər.

**6. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında daimi yaşamaq hüququnun (immiqrant statusu) verilməsi ilə əlaqədar tələb olunan sənədlər hansılardır?**

Azı iki il Azərbaycan Respublikasında qanuni əsaslarla müvəqqəti yaşayan 18 yaşına çatmış fəaliyyət qabiliyyəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında daimi yaşamaq (immiqrant statusu almaq) üçün Dövlət Miqrasiya Xidmətinə vəsatət verə bilərlər.

Azərbaycan Respublikasının “İmmiqrasiya haqqında” Qanununun 4-cü maddəsinin birinci hissəsinə əsasən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin müddətinin bitməsinə azı 3 ay qalmış daimi yaşama hüququnun (immiqrant statusu) əldə olunması ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidirlər.

İmmiqrasiya haqqında vəsatətə notarial və ya ona bərabər tutulan qaydada təsdiq edilən aşağıdakı sənədlər əlavə olunur:

doğum haqqında şəhadətnamə və ya ona bərabər tutulan sənəd;

ailə tərkibi haqqında (ailə üzvlərinin adı, soyadı, təvəllüdü, məşğuliyyəti, yaşadığı və olduğu yer göstərilməklə) arayış, nikah haqqında şəhadətnamənin surəti, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə immiqrasiya edən 14 yaşından 18 yaşınadək olan uşaqların immiqrasiya haqqında yazılı razılığı;

immiqrasiya edən şəxslərin sağlamlığı haqqında arayış;

Azərbaycan Respublikasının vətəndaşı və ya Azərbaycan Respublikası ərazisində daimi yaşayan şəxs ölkədə qaldığı vaxtda təminatı öz üzərinə götürdüyü hallar istisna olmaqla, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin və onlarla gələn ailə üzvlərinin minimal tələbatını ödəyə bilən vəsaitin olması barədə sənəd;

əcnəbilərin vətəndaşlığını, vətəndaşlığı olmayan şəxslərin isə vətəndaşsızlığını təsdiq edən sənəd;

əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin peşə ixtisasını təsdiq edən sənəd;

3×4 sm ölçüdə fotoşəkil – 4 ədəd (qırmızı fonda);

yaşayış sahəsinə köçmək üçün əsas verən sənədin (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə və ya kirayə müqaviləsi, yaxud Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş başqa sənəd) surəti;

vətəndaşa yaşayış sahəsi verən şəxsin ərizəsi (Dövlət Miqrasiya Xidmətinin rəisinin adına);

vətəndaşa yaşayış sahəsi verən şəxsin şəxsiyyət vəsiqəsinin surəti.

**Qeyd:** İmmiqrant statusu almaq istəyən şəxslər sağlamlıq haqqında arayışı aşağıda göstərilən tibb mərkəzlərindən əldə edə bilərlər:

a) HİV virusları (QİÇS Əleyhinə Mübarizə Mərkəzi);

b) Hepatit B və C virusları (M.Mirqasımov adına Respublika Klinik Xəstəxanası);

c) RW (Respublika Dəri-Zöhrəvi Dispanseri);

d) Vərərmin açıq formaları (Ağciyər Xəstəlikləri İnstitutunun 4 saylı Vərəm Əleyhinə

Dispanseri);

e) Psixi xəstəliklər (1 saylı Ruhi Əsəb Dispanseri).

**7. Azərbaycan Respublikasının vətəndaşlığına bərpa ilə əlaqədar hansı sənədlər tələb olunur?**

Əvvəllər Azərbaycan Respublikası vətəndaşı olmuş və ya Azərbaycan Respublikası vətəndaşlığına xitam verilmiş şəxsin öz vəsatəti əsasında o, Azərbaycan Respublikası vətəndaşlığına bərpa edilə bilər. Azərbaycan Respublikası vətəndaşlığına bərpa barədə Azərbaycan Respublikası Prezidentinin adına yazılmış vəsatətləri Azərbaycan Respublikası ərazisində yaşayan şəxslər Dövlət Miqrasiya Xidmətinə, xarici dövlətlərdə yaşayan şəxslər isə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinə və ya konsul idarələrinə təqdim edirlər. Bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin adına yazılmış müraciət edilir.

Vətəndaşlığa bərpa ilə bağlı tələb olunan sənədlər:

Azərbaycan Respublikasının Prezidentinin adına ərizə (səbəbini göstərmək şərti ilə);

tərcümeyi-hal;

Azərbaycan Respublikası vətəndaşlığına xitam verilməsi barədə sənəd; şəxsiyyəti təsdiq edən sənədin surəti (notarial qaydada təsdiq olunmuş); ailə tərkibi haqqında arayış;

ədəd fotoşəkil (3×4 sm ölçüdə);

QİÇS müayinəsindən keçməsi və sağlamlıq haqqında arayış (vətəndaşlığa bərpa olunmaq üçün

müraciət edən şəxs respublikanı tərk etməyibsə, bu sənəd tələb olunmur);

dövlət rüsumunun ödənilməsi barədə qəbz (110 manat).

**8. Azərbaycan Respublikasının vətəndaşlığından çıxma ilə əlaqədar tələb olunan sənədlər hansılardır?**

Azərbaycan Respublikası vətəndaşlığından çıxma barədə Azərbaycan Respublikası Prezidentinin adına yazılmış ərizə-anketi Azərbaycan Respublikası ərazisində yaşayan vətəndaşlar Dövlət Miqrasiya Xidmətinə, xarici dövlətlərdə yaşayan vətəndaşlar isə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və ya Konsulluq idarələri vasitəsi ilə Xarici İşlər Nazirliyinə təqdim edirlər.

Vətəndaşlıqdan çıxma ilə bağlı tələb olunan sənədlər:

Azərbaycan Respublikasının Prezidentinin adına ərizə (səbəbini göstərmək şərti ilə);

tərcümeyi-hal;

şəxsiyyəti təsdiq edən sənədin surəti (notarial qaydada təsdiq olunmuş);

yaşayış yerindən ailə tərkibi haqqında arayış;

4 ədəd fotoşəkil (3×4 sm ölçüdə);

dövlət qarşısında icra edilməmiş öhdəliklərinin olmaması və ya Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin mənafeləri ilə bağlı olan əmlak öhdəliklərinin olmaması barədə müvafiq sənədlər (siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyası tərəfindən təsdiq edilmişdir);

dövlət rüsumunun ödənilməsi barədə qəbz (110 manat).

**9. Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə müvəqqəti olma müddətinin uzadılması ilə əlaqədar hansı sənədlər tələb olunur?**

müvəqqəti olma müddətinin uzadılması barədə ərizə-anket – 1 ədəd;

əcnəbinin ölkə ərazisinə daxil olması üçün əsas olmuş pasportunun və ya onu əvəz edən sənədi, vətəndaşlığı olmayan şəxsin isə şəxsiyyətini təsdiq edən sənədi;

3×4 ölçüdə fotoşəkil – 2 ədəd (qırmızı fonda);

müvəqqəti olma müddətinin uzadılmasına əsas olan halların mövcudluğunu təsdiq edən sənəd; Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyata alınmasını təsdiq edən sənədi;

14-18 yaşlarında olan şəxslərin notarial qaydada təsdiq edilmiş yazılı razılığı;

yaşayış sahəsinə köçmək üçün əsas verən sənədin (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə və ya kirayə müqaviləsi, yaxud Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş başqa sənədin)

notarial qaydada təsdiq olunmuş surəti;

vətəndaşa yaşayış sahəsi verən şəxsin ərizəsi (Dövlət Miqrasiya Xidmətinin rəisinin adına olmaqla notarial qaydada təsdiq olunmuş);

vətəndaşa yaşayış sahəsi verən şəxsin şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq olunmuş surəti.

**Qeyd:** Aşağıda sadalanan hallarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan

Respublikasının ərazisində müvəqqəti olma müddəti uzadılır:

a) əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində təcili müalicə olunmasına zərurət yarandıqda;

b) əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında yaşayan yaxın qohumları ağır xəstələndikdə və ya vəfat etdikdə;

c) xidməti zərurətlə əlaqədar Azərbaycan Respublikasına gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən nəzərdə tutulmuş işlərin başa çatdırılmadığına dair həmin şəxsləri ölkəyə dəvət etmiş təşkilat tərəfindən əsaslandırılmış vəsatət verildikdə.

**10. Əcnəbilərin Azərbaycan Respublikasında qaçqın statusunu əldə etmələri ilə əlaqədar hansı sənədlərtələb olunur?**

Qaçqın statusu verilməsi barədə vəsatətlə müraciət edən şəxs vəsatətində qaçqın statusu verilməsi xahişinin səbəblərini göstərməklə xüsusi anket (Əlavə 7) blankını doldurmalı, özünün, habelə (himayəsində və qəyyumluğunda olan şəxslər də daxil olmaqla) ailə üzvləri barədə məlumatları göstərməklə ölkəsi, doğulduğu yer, ailə vəziyyəti haqqında məlumatları qeyd edir, yol sənədini və şəxsiyyətini təsdiq edən sənədi (xarici pasport, yol vəsiqəsi və s.) Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinə təhvil verməlidir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olma, yaşama və ya

Azərbaycan Respublikası ərazisindən tranzitlə keçmə qaydalarını pozmasına, yəni:

Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlər olmadan, habelə qeydiyyatsız yaşamasına;

etibarsız sənədlərlə Azərbaycan Respublikasının ərazisində olmasına və ya yaşamasına;

Azərbaycan Respublikasının ərazisində müvəqqəti olduğu və ya müvəqqəti yaşadığı dövrdə Azərbaycan Respublikasına gəlişinin bəyan edilmiş məqsədinə uyğun olmayan fəaliyyətlə məşğul olmasına;

işə düzələrkən qanunvericilikdə müəyyən edilmiş qaydaları pozmasına;

bir yerdən başqa yerə getmə və yaşayış yeri seçmə üçün qanunvericilikdə müəyyən olunmuş qaydaya əməl etməməsinə; qanunvericilikdə müəyyən edilmiş qalma müddəti qurtardıqdan sonra getməkdən boyun qaçırmasına;

Azərbaycan Respublikasının ərazisindən tranzitlə keçmə qaydalarına əməl etməməsinə görə -

əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla 300 manatdan 400 manatadək miqdarda cərimə edilir.

Əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasına dəvət etmiş və onlara yaşayış sahəsi vermiş Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən həmin şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddəti bitdikdən sonra müəyyən olunmuş qaydada vaxtında ölkə ərazisindən çıxmasının təmin edilməsi üçün tədbir görülməməsinə görə – 300 manatdan 400 manatadək miqdarda cərimə edilir.

Azərbaycan Respublikasında əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri qəbul edən, onlara xidmət göstərilməsini və ya onların işə qəbul olunmasını təmin edən və onların Azərbaycan Respublikasında olması, yaşaması və ya Azərbaycan Respublikası ərazisindən tranzitlə keçməsi şərtlərinə əməl edilməsi ilə əlaqədar vəzifələri yerinə yetirən müəssisə, idarə və ya təşkilatların vəzifəli şəxsləri tərəfindən əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin qeydiyyata alınmasının və qeydiyyatdan çıxarılmasının, onlara Azərbaycan Respublikasında olma və ya yaşama hüququ verən sənədlərin rəsmiləşdirilməsinin müəyyən edilmiş qaydalarının pozulmasına görə - vəzifəli şəxslər 300 manatdan 500 manatadək miqdarda cərimə edilir.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin işə cəlb edilməsi qaydasının pozulması İşəgötürən tərəfindən qanunvericiliyin tələbləri pozulmaqla fərdi icazəalınmadan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin işə cəlb edilməsinə görə – vəzifəli şəxslər üç min manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər 30 000 manatdan 35 000 manatadək miqdarda cərimə edilir.

**11. Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətin müəyyən edilməsi ilə əlaqədar tələb olunan sənədlər hansılardır?**

*Azərbaycan Respublikasında yaşayan şəxslərdən tələb olunan sənədlər:*

Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyət ilə bağlı ölkə ərazisində yaşayan şəxslər tərəfindən doldurulan ərizə-anket – 1 ədəd;

3*4 sm ölçüdə fotoşəkil – 2 ədəd;

tərcümeyi-hal;

şəxsiyyəti təsdiq edən sənədin surəti (notarial qaydada təsdiqlənmiş);

yaşayış yeri üzrə qeydiyyatı barədə F-A kartının surəti (müvafiq icra hakimiyyətinin təsdiqi ilə);

18 yaşnadək uşaqların valideynlərinin şəxsiyyətlərini təsdiq edən sənədlərinin surətləri (notarial qaydada təsdiqlənmiş);

qaçqınsınızsa, bu statusunuzu təsdiq edən sənədin surəti (notarial qaydada təsdiqlənmiş).

*Xarici ölkələrdə yaşayan şəxslərdən tələb olunan sənədlər:*

Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyət ilə bağlı xarici ölkələrdə yaşayan şəxslər tərəfindən elektron formada doldurulmalı olan ərizə-anket – 1 ədəd;

3*4 sm ölçüdə fotoşəkil – 2 ədəd;

tərcümeyi-hal;

şəxsiyyəti təsdiq edən sənədin surəti (notarial qaydada təsdiqlənmiş);

18 yaşınadək uşaqların valideynlərinin şəxsiyyətlərini təsdiq edən sənədlərinin surətləri (notarial qaydada təsdiqlənmiş);

qaçqınsınızsa, bu statusunuzu təsdiq edən sənədin surəti (notarial qaydada təsdiqlənmiş).

Azərbaycan Respublikasının "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Qanununun

12-ci maddəsinin tələblərinə uyğun olaraq cinayət işi üzrə şübhəli və ya təqsirləndirilən şəxs qismində tanınmışdırlarsa – barələrində cinayət təqibi üzrə icraat başa çatanadək; cinayət törətdiyinə görə məhkum olunublarsa — cəza çəkməkdən azad olunana, yaxud cəzanı tam çəkənədək; məhkəmədə onlara qarşı mülki iddia verilibsə — müvafiq olaraq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada mülki iş üzrə qərar qüvvəyə minənədək əcnəbilərin Azərbaycan Respublikasından getməsi müvəqqəti məhdudlaşdırıla bilər.

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş hallar istisna olmaqla tanınmır.

Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazələrin alınması ilə əlaqədar əcnəbiyə yaşayış sahəsi verən şəxs (ev sahibi) tərəfindən Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisinin adına müraciət olunan müvafiq ərizədə ev sahibinin və qediyyata düşən şəxsin adı, soyadı, atasının adı, həmçinin şəxsin qeydiyyata düşmək istədiyi ünvan göstərilməklə, əcnəbi və ya vətəndaşlığı olmayan şəxsə müvəqqəti və ya daimi qeydiyyata düşməsinə etiraz edilməməsi barədə qeydlər öz əksini tapmalıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 6 dekabr tarixli 214 saylı qərarı ilə təsdiq edilmiş "Əcnəbinin Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi üçün fərdi icazənin verilməsi Qaydaları"nin 1.3-cü bəndinə əsasən, işəgötürən fərdi icazə almış əcnəbini başqa işəgötürənin yanında işə keçirə bilməz. Belə ki, əcnəbini və vətəndaşlığı olmayan şəxsi Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyətinə cəlb etmək istəyən digər işəgötürən yeni fərdi icazənin alınması ilə bağlı Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciət etməlidir.

-Birillik müvəqqəti yaşama icazəsinə görə 120 (yüz iyirmi), fərdi icazəyə görə isə işəgötürən tərəfindən 1000 (min) manat məbləğində dövlət rüsumu Kapital Bankın yerli filiallarından birinə ödənməlidir

Vərəsəlik hüququnun ümumi müddəaları

## 1. Vərəsəlik nə deməkdir?

Vərəsəlik ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) keçməsidir.

**2. Miras qoyanın əmlakı vərəsələrə hansı əsaslarla keçir?**

Miras qoyanın əmlakı vərəsələrə qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçə bilər. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

**3. Vərəsələr kimlərdir?**

1. Qanun üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın ölümündən sonra doğulmuş uşaqları ola bilərlər.

2. Vəsiyyət üzrə vərəsəlik zamanı vərəsələr miras qoyanın öldüyü məqamda sağ olmuş şəxslər, habelə miras qoyanın sağlığında mayası bağlanmış və onun ölümündən sonra doğulmuş şəxslər, bu şəxslərin onun uşaqları olub-olmadığına, habelə hüquqi şəxslər olub-olmadığına baxmayaraq, ola bilərlər.

## *QANUN ÜZRƏ VƏRƏSƏLİK*

**4. Qanun üzrə vərəsələr kimlərdir?**

Qanun üzrə vərəsəlik zamanı aşağıdakılar bərabər pay hüquqlu vərəsələr sayılırlar:

1. Birinci növbədə – ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər).

*(Övladlığa götürülən və onun övladları övladlığa götürənin vərəsələri və ya qohumları kimi övladlığa götürənin uşaqlarına və onların övladlarına bərabər tutulurlar.)*

2. İkinci növbədə – ölənin bacıları və qardaşları. Miras qoyanın bacısı uşaqları və qardaşı uşaqları və onların uşaqları o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsəsi olacaq valideynləri sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı onların ölmüş valideyninə çatası miras payını bərabər olaraq miras alırlar.

3. Üçüncü növbədə – həm ana tərəfdən, həm də ata tərəfdən nənə və baba, nənənin anası və atası, babanın anası və atası. Nənənin anası və atası, babanın anası və atası o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt nənə və baba sağ olmasın.

4. Dördüncü növbədə – xalalar və bibilər, dayılar və əmilər.

5. Beşinci növbədə – xala uşaqları və bibi uşaqları, dayı uşaqları və əmi uşaqları, onlar sağ olmadıqda isə onların uşaqları.

## *VƏSİYYƏT ÜZRƏ VƏRƏSƏLİK*

**5. Vəsiyyət üzrə vərəsəlik nə deməkdir?**

Fiziki şəxs ölməsi halı üçün öz əmlakını və ya onun bir hissəsini həm vərəsələr sırasından, həm də kənar adamlar sırasından bir və ya bir neçə şəxsə qoya bilər. Bunun üçün miras qoyan tərəfindən

vəsiyyətnamə qoyulmalıdır.

## 6. Vəsiyyətnamə necə tərtib olunur?

Vəsiyyətnamə yazılı formada tərtib edilməlidir. Həm notariat formasında və ya bunsuz yazılı vəsiyyətnaməyə yol verilir.

*Vəsiyyətnamənin notariat forması* tələb edir ki, vəsiyyətnaməni vəsiyyət edən özü yazır və imzalayır, notarius isə təstiqləyir. Vəsiyyətnaməni vəsiyyət edənin sözlərindən iki şahid olmaq şərti ilə notarius yaza bilər, vəsiyyət edən isə vəsiyyətnaməni notariusun və şahidlərin yanında oxuyub imzalayır. Əgər vəsiyyət edən hər hansı bir səbəbdən vəsiyyətnaməni özü imzalaya bilmirsə, başqa fiziki şəxs imzalaya bilər. Bu zaman vəsiyyət edənin hansı səbəbdən vəsiyyətnaməni imzalaya bilmədiyi göstərilməlidir.

*Ev vəsiyyətnaməsi-* vəsiyyət edən vəsiyyətnaməni öz əli ilə yazıb imzalaya bilər. Bu halda o, vəsiyyətnaməni zərfə qoyub bağlayaraq üç şəxsin yanında notariusa (və ya digər notariusa bəbrabər tutulan şəxsə) verə bilər.

## Mirasda məcburi pay nə deməkdir?

Vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) **vəsiyyətnamənin məzmunundan asılı olmayaraq** mirasda məcburi payı vardır. Bu pay qanun üzrə vərəsəlik zamanı onlara çatası payın yarısını (məcburi pay) təşkil etməlidir.

Məcburi pay almaq hüququ olanvərəsə onu qəbul etməkdən imtina edə bilər, lakin bu imtina digər qanun üzrə vərəsələrin məcburi payının artmasına səbəb olmur. Onun payı vəsiyyət üzrə vərəsələrə keçir.

## Mirasın qəbul edilməsi qaydası nədir?

Mirası istər qanun üzrə, istərsə də vəsiyyət üzrə vərəsə qəbul edir.

Vərəsə mirasın açıldığı yer üzrə notariat kontoruna mirası qəbul etdiyi barədə ərizə verdikdə və ya əmlaka sahiblik etməyə və ya əmlakı idarə etməyə faktiki başladıqda və bununla da mirası qəbul etdiyini şəksiz nümayiş etdirdikdə miras vərəsə tərəfindən qəbul edilmiş sayılır.

Vərəsə mirasın bir hissəsinə sahiblik etməyə faktik başladıqda hesab edilir ki, mirasın nədə ifadə edilməsindən və harada olmasından asılı olmayaraq, o, mirası tamamilə qəbul etmişdir.

## Miras hansı müddətə qəbul edilə bilər?

Vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirası qəbul edə bilər. Miras açıldığı gündən altı ay keçdikdən sonra mirasın qəbuluna yol verilmir.

*Mirasın qəbul edilməsinin xüsusi müddəti*

Əgər miras almaq hüququ digər vərəsələrin mirası qəbul etmədikləri halda yaranırsa, miras onun qəbulu üçün müəyyənləşdirilmiş müddətin qalan hissəsi ərzində qəbul edilməli, bu müddət altı həftədən az olduqda isə altı həftəyədək uzadılmalıdır.

**Vərəsəlik şəhadətnaməsi nə vaxt verilir?**

Vərəsəlik şəhadətnaməsinin verildiyi müddət:

Vərəsəlik şəhadətnaməsi vərəsələrə mirasın açıldığı gündən altı ay keçdikdən sonra istənilən vaxt verilir. Əgər notariat orqanında şəhadətnamə tələb edən şəxslərdən savayı, başqa vərəsələrin olmadığı barədə məlumat vardırsa, vərəsəlik şəhadətnaməsi altı aydan da tez verilir.

**Vəsiyyətnaməni dəyişdirmək və ya ləğv etmək olarmı?**

Vəsiyyət edən vəsiyyətnaməni həmişə dəyişdirə və ya ləğv edə bilər. Bunu aşağıdakı üsullarla etmək olar:

- əvvəlki vəsiyyətnaməni və ya onun bir hissəsini ləğv edən yeni vəsiyyətnamə tərtib etməklə (əvvəlki vəsiyyətnamənin göstərişləri sonrakı vəsiyyətnamə ilə dəyişdirilmədiyi halda qüvvədə qalır),

- notariat orqanına ərizə verməklə,

- vəsiyyətnaməni ləğv etmək üçün onun bütün nüsxələri vəsiyyət edənin özü və ya onun sərəncamı ilə notarius tərəfindən məhv edilməlidir.

- Notariat vəsiyyətnaməsi başqa formalı vəsiyyətnamə ilə ləğv edilə bilməz.

Dövlət qulluğuna qəbul

**Dövlət qulluğu dedikdə nə başa düşülür?**

Dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir.

**Hansı orqanlar dövlət orqanları hesab edilirlər?**

Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış və dövlət büdcəsindən maliyyələşdirilən dövlət qulluqçularının qurumu dövlət orqanıdır.

**Kimlər dövlət qulluqçuları hesab edilirlər?**

Dövlət qulluqçuları “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununu ilə müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər) dövlət qulluğu vəzifəsini tutan və Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşlarıdır.

**Hansı şəxslərin dövlət qulluğuna girmək hüququ vardır?**

Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 27.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının 16 yaşına çatmış, irqindən, milliyyətindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq, müvafiq vəzifənin tələblərinə uyğun peşə

hazırlığına malik olan vətəndaşlarının dövlət qulluğuna girmək hüququ vardır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya hansı vəzifələrin tutulması üzrə müsabiqə elan edir?**

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 28.2-ci maddəsinə müvafiq olaraq inzibati vəzifələrin altıncı-doqquzuncu təsnifatlarına uyğun olan vəzifələr boşaldıqda, müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya) həmin vəzifələrin tutulması üçün müsabiqə elan edir.

Prokurorluq, Ədeliyyə, Milli Təhlükəsizlik, Müdafiə, Fövqəladə Hallar, sərhəd xidməti, Miqrasiya xidməti, daxili işlər, gömrük, vergi xarici işlər və feldyeger rabitəsi orqanlarına qəbulla bağlı imtahanlar Dövlət Qulluğu komissiyası tərəfindən aparılmır.

**Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqələrin keçirilməsi ilə bağlı məlumatı haradan əldə etmək olar?**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqələrin keçirilməsi ilə bağlı elanlar mütəmadi olaraq kütləvi informasiya vasitələrində dərc edilir, o cümlədən Komissiyanın rəsmi internet saytında (http://www.csc.gov.az/) yerləşdirilir.

Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar hansı sənədləri təqdim etməlidirlər?

Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar aşağıdakı sənədləri Azərbaycan Respublikası

Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim etməlidirlər:

ərizə

şəxsiyyəti təsdiq edən sənədin surəti (notarial qaydada təsdiq edilmiş)

kadrlar uçotunun şəxsi vərəqəsi

ali təhsil haqqında sənədin surəti (notarial qaydada təsdiq edilmiş)

əmək kitabçasının surəti (olduğu təqdirdə, notarial qaydada və ya işəgötürən tərəfindən təsdiq edilmiş)

ixtisas dərəcəsini təsdiq edən sənədlərin surəti (olduğu təqdirdə, notarial qaydada və ya işəgötürən tərəfindən təsdiq edilmiş)

sağlamlıq haqqında arayış

ağ fonlu rəngli fotoşəkil 4 ədəd (2 ədəd 3 x 4, 2 ədəd 4 x 6)

Sənədlərin qəbulu müsabiqə elan edilən gündən etibarən 30 gün Azərbaycan Respublikasının

Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən aparılır.

“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 13.2-ci maddəsinə əsasən inzibati

vəzifə iddiasında olan şəxsin müvafiq ali təhsili olmalıdır, orta təhsilli vətəndaşlar elan edilən müsabiqələrdə iştirak edə bilməzlər.

Müsabiqədə iştirak etmək istəyən vətəndaşların  təqdim etməli olduqları ərizə formasını və kadrlar uçotunun şəxsi vərəqəsini Komissiyanın rəsmi internet saytından (http://www.csc.gov.az/) yükləyə və ya inzibati binasından (AZ1072, Bakı şəhəri, K.Rəhimov küçəsi, 874-cü məhəllə) əldə edə etmək olar.

**Dövlət qulluğuna qəbul üzrə müsabiqə hansı mərhələlərdən ibarətdir?**

Qanunvericiliyə uyğun olaraq müsabiqə vahid test imtahanından və söhbətdən ibarətdir. Test İmtahanında mümkün olan baldan ən azı 80 faizini toplamış namizəd imtahanı müvəffəqiyyətlə vermiş hesab edilir. Əlavə olaraq bildiririk ki, test imtahanında hər namizədə 100 sual təqdim edilir və hər düzgün cavab bir balla qiymətləndirilir.